MİRHƏMİD QƏNİZADƏ

# ÜRƏYİMİN DİŞ AĞRISI

*(şeirlər)*

Bakı - Mütərcim - 2014

***Kitabların kitabı incilərin incisi***
***məhəbbət haqqında kitabdır.***
*Şeyx Nizami Gəncəvi*

***Bu kitabı mənim üçün dünyada ən əziz olan, bu günlərdə 89 yaşı tamam olmuş ANAMA ithaf edirəm.***

Redaktor
**Söhrab Tahir AzərAzər**
*Xalq şairi*

Mirhəmid Qənizadə. Ürəyimin diş ağrısı (*şeirlər*).
- Bakı: Mütərcim, 2014. - 200 səh.

Q $\frac{4702060000}{026}$ 55-14

© M.Qənizadə, 2014

# Mənadan mənaya baş vuran şair

Şair Mirhəmid Qənizadə ilə (Bunu artıq tam məsuliyyətlə demək olar) mənim tanışlığım 2010-cu ilin payızında olub. Azərbaycanda Atatürk Mədəniyyət Mərkəzində Məmməd Arazın qardaşı qızı Rəhilə xanımın kitabının təqdimatında Mirhəmid (o vaxt mən hələ onu tanımırdım) mənə yaxınlaşdı. Telefon nömrəmi aldı və bir müddətdən sonra biz onunla bizim evdə görüşdük. İlk kitabını gətirmişdi. Kitabın adı məni sanki silkələdi: "Qəm könlümə gəlin köçüb". Sonra redaktorun - şair, mənim dostum Oqtay Rzanın kitaba müqəddiməsini - "Qəmdən yazanların biri də artdı" oxuyandan sonra artıq kitab barədə ilk təəssüratlarım formalaşmağa başladı: Deyəsən, müəllif M.Füzuli ilə ədəbi qəm yükünü bölüşənlərin dəstəsinə qoşulmaq istəyir.

Onunla ikinci görüşümüz az bir müddət sonra oldu. Mirhəmid müəllim kitab barədə, daha doğrusu, oradakı şeirlər barədə mənim fikrimi bilmək istəyirdi. Mən ondan soruşdum ki, ikinci kitabı çıxartmaq fikri varmı? Utana-utana da olsa, bildirdi ki, Söhrab müəllim, kitab demək olar ki, hazırdır və mən istəyirəm ki, bu kitabın redaktoru siz olasınız. Razılaşdıq ki, kitab çapa hazırlanarkən bütün şeirləri mən oxu-yandan sonra, fikrimi bildirəm.

Üstündən xeyli vaxt ötüb. Budur Mirhəmid müəllimin ikinci kitabı çapa hazırlanır və o kitab mənim stolumun üstündədir. Yenə qəribə, düşündürücü və bədii pafoslu ad seçib: "Ürəyimin diş ağrısı".

Mən bu yazıda onun birinci kitabı barəsində söz deməyi artıq bilirəm. Çünki kitabın redaktoru şair dostum Oqtay Rza gözəl təhlil verib. Bu yazıda mənim məqsədim oxucuların diqqətini bir neçə məqama cəlb etməkdir.

Birincisi, sevindirici haldır ki, Mirhəmid müəllim şeirdə məna və fikrin əsas olduğunu çox gözəl anlayır. Əks təqdirdə şeir yox, söz yığını olur. Mənasız şeir. Ən çətin iş mənalı söz deməkdir. Şeirdə əsas yükü qafiyə daşımır. Gəlin, Mirhəmidin şeirlərindən bir neçəsinə nəzər salaq və görün hansı fikirləri təlqin edir.

*"...Susamış dodaqtək fikrim yalayır,*
*Yuxumun küləyi dilbər xəyalın..."*
("Xəyalın")

Və yaxud:

"*Yar ləbi var, özgə şərab içilməz,*
*Aşiq qıtlıq çəkməz su sarı, gülüm."*
("Gülüm")

Yenə elə həmin "Gülüm" şerində:

*"Günəşi mat qoyur üzün ahəngi"*

Mirhəmidin şeirlərində əsas mövzu – onun yaradıcılığında qırmızı xətlə keçən məhəbbət mövzusudur. Onun məhəbbət şeirləri bir ayrı məhəbbətlə oxunur. Lakin bununla yanaşı, Mirhəmidin şeirlərində Vətən mövzusu, təbiət təsvirləri, ictimai dəyərlər, insani dəyərlər xüsusi qayğıyla aşılanır.

"Vətən sevgisi" şeirində

*"– Şəhidlik zirvəsidir*
*Mənə Vətən sevgisi!* "– deyir Mirhəmid müəllim.

Yaxud "Aralı" adlı şeirində

*"Yurdunu yar bilən bu Mirhəmidi*

*Düşməsin Vətəndən, eldən aralı. "*- deyir.

"Vermişəm" adlı şeirində M.Qənizadə Vətən oğullarını öz ömürlərini yalnız Vətənə, millətə, yurda həsr etməyə çağırır.

*"Mirhəmidəm, Azərbaycan and yerim,*
*Torpağımdan qan cücərdim, can dərim.*
*Bir canım var elə qurban göndərim,*
*Olmasa, ömrümü yelə vermişəm."*

M.Qənizadənin bu kitabında onun bir neçə ustadnaməsi də yer alıb. Bu şeirlərdə müəllif, sanki, oxucu qarşısında həyat adlı bir məktəb tablosu yaradır; oxucunu seçim qarşısında qoyur: iki yoldan birini seçməlisən: ya xeyir yolunu, ya da şər yolunu. Xeyir yolunda: ucalıq, məğrurluq, qeyrət, ağıl, hikmət, məhəbbət, vəfa və s.; Şər yolunda isə, şairin fikrincə, ümumiyyətlə, insanlıq yoxdur: çünki bu yola çıxan mütləq şeytanla yoldaşlıq edəcək.

*"Mirhəmid ömrünə məna düzdürür,*
*Adam var şeytanı yoldan azdırır.*
*Adam var içində dünya gəzdirir*
*Adam var dünyaya qəbirdən baxır."*

("Baxır")

Və yaxud:

*"Adam var bilinmir balıqdır, ətdir."*

(Yenə orada)

Şair insanda ağıl və qürura xüsusi diqqət cəlb edir: insan ac da yaşasa, tox da yaşasa, mütləq qürurunu gözləməlidir. Çünki ağıl və qürur insanı eldə-obada dağdan ağır edir:

*"Kimi eldə dağdan ağır*
*Sözlərindən hikmət yağır.*
*Kimi çağırma, ya çağır,*
*Məclislərdə başda olur."*

("Olur")

Onu da qeyd edim ki, şair Mirhəmid şeiriyyata, ədəbiyyata gələndə, özü demiş, yarı ömrü keçmişdi. Bəlkə buna görədir ki, şeirlərindən təcrübəli, həyat dərsi keçmiş, həyat süzgəcindən keçmiş bir obraz baxır: bu həm Məcnun kimi sevə bilir, həm Vətən yolunda şəhid ola bilir, həm də dünyaya içində gəzdirdiyi dünyadan baxır. Alqışlanmalı bir missiyadır.

Yeri gəlmişkən, Mirhəmidin gözəl xanəndə olduğunu da bilirəm. Onun xanəndəliyinə şairliyi, şairliyinə də xanəndəliyi gözəl təsir etmişdir. Bu kitabda o, bir neçə itib-batmış xalq mahnılarının sözlərini böyük uğurla işləmişdir, bərpa etmişdir. Eləcə də şeirlərində dəfələrlə muğamata, saza müraciət etməsini və onlarla fəxr etməsini bildirir.

Onu da qeyd etmək yerinə düşərdi ki, Mirhəmid müəllim dinə bağlı, dindar bir adamdır. Müqəddəs Məşhəd və Kərbəla ziyarətlərində də olub, müqəddəs "Quran"ı orijinaldan çox gözəl qiraət edir, namaz qılır, oruc tutur və s., bir sözlə, ibadət əhlidir. Məhz buna görədir ki, o, bir neçə dini şeir də yazmış və bu şeirlərdə mövhumatdan qaçaraq əsl möminlik yollarını göstərmişdir. Onun "Sonra" adlı ustadnaməsində bir bənddə görün neçə fikir çatdırır.

*"El sözüdür, haqq nazilər, üzülməz,*
*Tərs qırılar, ipə-sapa düzülməz.*
*Bir əyri qəlb yüz Kəbəylə düzəlməz,*
*Şeytan öz toxumun səpəndən sonra."*

Sevindirici haldır ki, Mirhəmid Qənizadə bu kitabını anasına ithaf edir. Elə onun həyatının xoşbəxtliklərindən biri də 90 yaşlı anasının bu günləri yaşaması və görməsidir. Həyatda anadan qiymətli heç nə ola bilməz. Övlad da bunu dərk edəndə qiyməti birə-beş artır. Bu mənada Mirhəmidi təbrik etməyə dəyər.

Sonda mən bunu da bildirmək istəyirəm ki, Mirhəmid Qənizadə bizləri hələ neçə-neçə kitablarıyla çox sevindirəcək. Mən buna çox, çox, daha çox inanıram. Mirhəmidin bu günlərdə 55 yaşı tamam oldu. Bu kitab da ona, sanki, ömürdən bir hədiyyədir. Mən də öz tərəfimdən Mirhəmidi ürəkdən təbrik edir, həyatında və yaradıcılığında ona yalnız və yalnız uğurlar arzulayıram.

***Söhrab Tahir AzərAzər***
**Xalq şairi**
*02 fevral 2014*

# Müəllifdən

**Bismillahirrəhmanirrəhim!**

Salam, əziz oxucular. Xoş gördük sizləri. Xatırlayırsınızsa, sizinlə ilk görüşümüzdən, yəni birincici kitabın nəşrindən artıq beş ilə yaxın bir vaxt keçir. Bu illər ərzində dünyada dəyişikliklər baş verdiyi kimi, mənim də, eləcə də, yəqin ki, sizlərin də həyatında dəyişikliklər baş verib. Mənim də həyatımda enmə-qalxmalar olub, amma ümumilikdə, şükür Allaha ki, uğurlar çox olub; xeyli şeirlər ərsəyə gəlib, Məşhəd və Kərbəla ziyarətlərində olmuşam, ən başlıcası isə müqəddəs Quran qirayətinə yiyələnmişəm və nəhayət, baba olmu-şam. Şükürlər olsun ki, dörd nəvəm var.

Keçək əsas məsələyə.

Əlli beş illik yubileyim ərəfəsində istədim ki, hansı şeirlər ki çap olunmayıb onları toplayıb bir kitab şəklinə salım. Və doğrudan da sanballı bir kitab alındı. Bu dəfə çox həyəcanla çalışırdım. Çünki bu kitabı həyatda mənimçün hər şeydən dəyərli və üstün olan anama həsr etməyi qərara almışdım. Anamın isə bu günlərdə, konkret olaraq 2013-cu ilin dekabrın 31-də 89 yaşı tamam oldu. Digər səbəb, bu kitabımın redaktoru məhz Azərbaycan xalqının ən azman, nəhəng, qüdrətli və ağsaqqal şairlərindən olan, bütün yazarların, mən deyərdim, bütün Yazıçılar Birliyinin əmisi sevimli əmi Söhrab Tahir AzərAzər olmasıdır.

Söhrab əmi mənim birincici kitabımla tanış olduqdan dərhal sonra növbəti kitaba onun özünün redaktor olmasına məmnuniyyətlə razılıq verdi. Bu artıq mənim üçün taleyin

gözəl bir töhfəsi idi. Buna görə də uca Yaradana min şükürlər olsun!

"Ürəyimin diş ağrısı" kitabına mən həm böyük həvəslə, həm də daha böyük məsuliyyət və ciddiyyətlə yanaşmışam. Və əminəm ki, zəhmətim hədər getməyəcək və bu kitab məni birinci kitabımdan - "Qəm könlümə gəlin köçüb" kitabından da çox sevindirəcək və daha çox uğurlar gətirəcək. İnşallah!

Əziz oxuxcu! Həyatda ən çətin iş söz demək sənətidir. Bu mənə elə gəlir. Çünki söz qədər gözəl və möhtəşəm bir şey tanımıram. Mən hər bir şeirimdə bu məsuliyyəti dərk etmişəm: mənim şeirlərimin hər hansı bir bəndi və ya misrası mənim üçün bütün dünyadan dəyərlidir. İnsan hər yeni söz deyəndə Allaha daha yaxın olur: o da yaradır o anda.

Bu kitabda bir neçə şeir birinci kitabdan təkrar çap edilmişdir. Bunun əsas səbəbi o şeirlərdə orijinallarda unudulmuş beytlərin artırılmasıdır. Digər səbəb şeirdəki mövzunun daha aktuallığıdır, məsələn: "Vətən sevgisi" şeiri kimi.

Kitabın sponsoru isə mənim uzun illərdir ki, dostluq etdiyim iş adamı Rəsul Sahabəli oğlu Bayramovdur. Ona dərin minnətdarlığımı və təşəkkürümü bildirməyi özümə borc bilirəm.

Əziz oxucular üçün sürpriz əlamətlərdən biri də bu kitabda bir neçə xalq mahnısına müraciət etməyimdir. Mən itib-batmış mahnıların sözlərini yenidən işləməyi özümə, eyni zamanda, bir xanəndə kimi də vacib bildim. İnşallah, yaxın gələcəkdə xalq musiqisi ilə bağlı, konkret olaraq, xalq havaları ilə bağlı kitab da yazmaq fikrim var. Bu, həmin işıqlı işlərin işartısıdır.

Kitabın adına gəldikdə isə, bu kitabı mövzu cəhətdən və bu mövzunun həlli cəhətdən də birinci kitabımın davamı kimi

görürəm və ən münasib ad kimi də “Ürəyimin diş ağrısı” şeirinin adının uyğun gəldiyini gördüm və bu barədə kitabın redaktoru xalq şairi Söhrab Tahir AzərAzər də mənimlə təmamilə həmfikir oldu.

Bir neçə kəlmə də kitabın çap olunduğu nəşriyyat barədə. Bu elə əvvəlki, yəni birinci kitabı çap edən “Mütərcim” nəşriyyatıdır. Düzü, bu nəşriyyat ilk günlərdən qəlbimə yatmışdı. Bu dəfə nəşriyyatın kollektivi, xüsusilə onun direktoru professor Telman Vəlixanlı və redaktoru Əliş Mir-zallı xüsusi diqqət və qayğı göstərməklə yanaşı, doğrudan da, çox zəhmət çəkdilər. Elə bil bu dəfə onları daha çox zəhmətə saldım. Mən onlara çox-çox minnətdaram və çox sağ olun deyirəm. İnşallah, növbəti kitabları da (əlbəttə ki, ömür vəfa qılsa) elə bu nəşriyyatda çap etdirmək fikrim qətidir.

Nəhayət, sonda, əziz oxucular, arzu edərdim ki, bu kitab sizə bol-bol sevinc gətirməklə yanaşı, sizdə şeirə, qəzələ, bütünlükdə ədəbiyyata olan maraq və həvəsinizi artırsın və əlbəttə, bir şair kimi Sizin ən çox sevdiyiniz şairlərdən biri də mən olum.

Sağ olun. Yeni-yeni görüşlərədək!

Əssəlamuəleykum və rəhmətullahu və bərəkətuhu!

***Mirhəmid Qənizadə***
*05 fevral 2014-cü il*

# USTADNAMƏLƏR



## ARALI

Avazı ruh verən ürəyə, cana,
Bülbülü ötməsin güldən aralı.
Göllərin bəzəyi yaşılbaş sona,
Düşməsin üzdüyü göldən aralı.

Suların səsindən duyar zər[1] insan:
Cananı arx edib axarın rəvan.
Çöllərin bəzəyi qaragöz ceyran,
Düşməsin gəzdiyi çöldən aralı.

Gözələ yaraşıq - can alan gözü:
Ürəyi yandırır alovu, közü.
Bütün aşiqlərdə "sevirəm" sözü,
Düşməsin dodaqdan, dildən aralı.

Ay söhbəti şirin, sözü məzəli,
Hər görəndə ruhum, canım təzəli.
O qulac telləri, o incə beli,
Düşməsin oxşayan əldən aralı.

Aşiq odur, canı sana cananı:
Getsə canan, gedə aşiqin canı.
Nə ola, görməyəm bir an şananı,
Nazla daradığı teldən aralı.

Əzəl yolçusuyam sevda yolların,
Yanağı alların, ləbi balların.
Düşməsin yarıma kəmər qollarım,
Nazla dolandığı beldən aralı.

---

[1] *Zər - burada: duyğulu, şair qəlbli.*

Bülbülün həmişə gül həmdəmidir,
Ruhumun cananı sevda dəmidir.
Yurdunu yar bilən bu Mirhəmidi,
Düşməsin obadan, eldən aralı.

*01 may 2005*

## KÖNLÜMÜN

Dünya var-dövləti, dünya sərvəti,
Olmayıb heç zaman yarı könlümün.
Vətən məhəbbəti, yar məhəbbəti,
Ən böyük dövləti, varı könlümün.

Eşqsiz, məhəbbətsiz neynirəm canı,
Sevgidir yaşadan ancaq insanı.
Bircə an görməsə nazlı cananı,
Qalxar göyə ahü-zarı könlümün.

Vətən, yar sevgisi ən şirin çağı,
Müqəddəs ocağı - Vətən qucağı.
Vətənin səhrası, meşəsi, dağı,
Ən ətirli çəmənzarı könlümün.

Vətənə odur can qurban verən də,
Bir qeyrəti yüz igiddə, ərəndə.
Qələm qaşlı, qara gözlü görəndə,
Əldən gedər ixtiyarı könlümün.

Sevgisində acı hicran görməsin,
Ağlayıban göz yaşını silməsin.
Vüsal olsun ən müqəddəs kəlməsi,
Qoy olmasın heç qübarı könlümün.

Rəhm eyləyib yarım bizə gələndə,
Əhvalım soruşub, dərdim biləndə,
Süzüb gözlərini nazla güləndə,
Açar gül-çiçək baharı könlümün.

Yarsız keçən günüm, ayım il olur,
Rəvan axan göz yaşlarım sel olur,
Yanır bədən, yanır ürək kül olur,
Tapılmayır xilaskarı könlümün.

Məhəbbəti bir insafsız gülədir:
Hicranında quzu kimi mələdir.
Mirhəmid neyləsin, yazı belədir:
Tərsə əsir ruzigarı könlümün.

*03 may 2005*

## OLAYDI

Daim bağça-bağda güllər açaydı,
Təbiətdə fəsli-bahar olaydı.
Çəmənzarda güllər ətir saçaydı,
Düzənlər ətirli gülzar olaydı.

Qızlar al geyinib, şana taxaydı,
Gözə sürmə, qaşa vəsmə yaxaydı.
Aşiqi yandırıb nazla yaxaydı,
Can verib, can alan nigar olaydı.

Bülbüllər cəh-cəhlə uçaydı bağda,
Çiçəklər min şövqlə açaydı tağda.
Naz ilə bəzənən gəlin - otaqda,
Aşiqə bəy çıxan mağar olaydı.

Sığal verəydilər qızlar telinə,
Həna yaxaydılar nazik əlinə.
Dar gələydi gümüş kəmər belinə,
Gözəllikdə bir füsunkar olaydı.

Dillər can deyəydi, can eşidəydi,
Hər sözünə canı qurban edəydi.
Yar vüsalı yarı heyran edəydi,
Nə bir hicran, nə intizar olaydı.

Gülzara dönəydi Vətənin düzü,
Sevincdən, fərəhdən güləydi üzü.
Xoş dövran sürəydi hər oğlu, qızı,
Aralıqda düz etibar olaydı.

Ömür bir qismətdir: əlli il, yüz il,
Arzuyla, diləklə doğur ömrə il.
İnsan hər arzuya yetib ilbəil,
Ürəyi sevincdən qübar  olaydı.

Məhəbbəti hər kəs qana biləydi:
Cananını canı sana biləydi,
Mirhəmidtək eşqdə yana biləydi,
Sevgi aləmində şüar olaydı.

*31 may 2005*

## VERMİŞƏM

Taledən payıma düşən ömrümü,
Ruhumu oxşayan telə vermişəm.
Vətən sevgisiylə bişən ömrümü,
Xidmətə Vətənə, elə vermişəm.

Qəlbən aşiqiyəm mən çəmənzarın,
Odur ki, çəkirəm gül intizarın.
Vəslinə yetməkçün sevgili yarın,
Qəlbimi yandırıb külə vermişəm.

Neçə gözəlləri salıb kəməndə,
Bülbültək ötmüşəm bağda, çəməndə.
Nə mən canda qaldım, nə də can məndə:
Ruhumu ətirli gülə vermişəm.

Gəlmədim dünyaya köçməmək üçün,
Gəldim qəm şərbətin içməmək üçün.
Namərd körpüsündən keçməmək üçün,
Özümü biryolluq selə vermişəm.

Sevda aşiqiyəm başdan, binadan,
Doğdum məhəbbətlə birgə anadan,
Bir baxışla ruhum, könlüm oynadan,
Canı qurban fitnə-felə vermişəm.

Könlüm aşiqidir qələm qaşın da,
Eşq sevdası gəzir hər dəm başımda.
Bəstəboyun əksi durub qarşımda,
Zikrini dodağa, dilə vermişəm.

Qəribəm,məskənim yar gəzən bağdır,
Məhəbbət sinəmdə can üzən dağdır.
Təbim soyumayan, qızmar ocaqdır,
Hənirin yar deyən dilə vermişəm.

Mirhəmidəm, Azərbaycan and yerim,
Torpağından qan cücərdim,can dərim.
Bir canım var, elə qurban göndərim,
Olmasa, ömrümü yelə vermişəm.

*02 iyun 2005*

## BORCLUYAM

Bu gün yarı yaşı keçən ömrümdə,
Ataya, anaya, elə borcluyam.
Uşağın, cavanın, yaşlı, pirin də,
Qəlbini aldığım dilə borcluyam.

Düzülüb sıraya ahənglə gedən,
Hikmət aldım ildən, aydan, həftədən.
Min naz ilə bülbül bağrın qan edən,
Çəməndə, bağçada gülə borcluyam.

Könlüm istər təbiət bahar ola,
Vətən başdan başa laləzar ola.
Ucalıqda, məğrurluqda qartala,
Kükrəyib coşmaqda selə borcluyam.

Şikarını qaş-gözüylə ovlayan,
Yar könlünü dil-dil ötüb tovlayan,
Ağlı alıb, huşu başdan qovlayan
Gözəllərdə fitnə-felə borcluyam.

Öz yeri payızın, qışın, yazın da,
Bülbüldə nəğmənin, güldə nazın da.
Qəlbimi oxşayan el avazında,
Sazında dillənən telə borcluyam.

Vətənin seyrinə çıx bahar çağı:
Nazlı bir gəlindir başda duvağı.
Qəlbimin vüqarı Vətən torpağı:
Şirvan, Qarabağa, Milə borcluyam.

Uçaq asimanda Vətən qanadlı,
Olaq Vətən adlı, Vətən soyadlı.
Qalxaq xilasına doğmalı, yadlı,
Yazılaq tarixə, ilə, borcluyam.

Azadlığın əldə bayraq eyləyən,
Məhəbbətin qəlbdə çıraq eyləyən,
Mirhəmidi Məcnunsayaq eyləyən,
Vətəndə səhraya, çölə borcluyam.

*17 iyun 2005*

## MƏNİM

Köklənib vüsali-yar həvəsinə,
Gəlin tək bəzənib otağım mənim.
Həsrətdir sevgili yar nəfəsinə,
İsinmir nə vaxtdır yatağım mənim.

Bəstəboy qəlbimi əfsun edibdir,
Özün Leyli, məni Məcnun edibdir,
Nədən qəlbin məndən küskün edibdir?
Kökündən ayrılıb budağım mənim.

Qoy durum saçının şəbindən öpüm,
Gözlərin dərmanım - həbindən öpüm,
Oxşayıb yanağın, ləbindən öpüm,
Ömürlük bal dadsın dodağım mənim.

Könlüm yar bağında nar həsrətində,
Kölgədə bəslənmiş qar həsrətində.
Əyər ölərəmsə yar həsrətində,
Silinməz sinəmdən bu dağım mənim.

Salıb eşqə, içirtdirib badəni:
Atəşi yandırır ruhu, bədəni.
Gecə-gündüz adını zikr edəni,
Sınıbdır dilimdən “qadağım“ mənim.

Ürək həsrət qalıb təmiz sevgiyə,
Gəzir otağına yar adlı yiyə,
O qədər qalxmısan, çatmısan göyə,
Sinəmdə kök atan, a dağım mənim.

Sevmişəm, batmışam naləyə, aha,
Ümidim qalmayıb nurlu sabaha.
Yüz il də yaşasam, sevmərəm daha:
Möhkəmdir qəlbimə qadağam mənim.

Vətəndir can alan sevgili dilbər:
Özü damarda qan, sözü dil-əzbər.
Vətən əldən getsə, yaşamaq hədər,
Haramdır başıma papağıım mənim.

Aşiqləri eşq atəşi tanıdır:
Damarımda axan yarın qanıdır.
Mirhəmidin cümlə varı canıdır -
Canımdır yarıma sadağam mənim.

*20 noyabr 2005*

## SONRA

Özünü çox öyüb, gəzmə aralı,
Unutma: dağ gəlir təpədən sonra.
Batarsan, sahildən üzmə aralı:
Güclü dalğa gəlir ləpədən sonra.

El sözüdür: Haqq nazilər, üzülməz,
Tərs qırılar, ipə-sapa düzülməz[1].
Bir əyri qəlb yüz Kəbəylə düzəlməz,
Şeytan öz toxumun səpəndən sonra.

Bülbülün şəfqəti gülündə olar,
Dağların qüdrəti selində olar.
Torpaq necə düşmən əlində qalar,
Əynimə geydiyim kəfəndən sonra?!

Çalış, ürək məhəbbətə düşməsin:
Yanacaqsan - qurumusan, yaşmısan.
Kim hünərli - təndirində bişməsin,
Fələk kündəsini yapandan sonra?

Aşiq eşq yolunda dağları aşar,
Səhrada hərlənər, düzdə dolaşar.
Bahar ətri olub gülə qarışar,
Könül həmdəmini tapandan sonra.

Tellərin dərdlərim teyləyə bilər,
Ürəyim közündən göynəyə bilər.
Qiyamət qopsa da neyləyə bilər,
Gözündə kükrəyən tufandan sonra?

---

[1] *İfadə müəllifə aiddir.*

Eşqimlə nurlanıb çıraqlaşırsan,
Ömür kitabımda varaqlaşırsan,
Məni özgələrdən soraqlaşırsan,
Sakitcə yanımdan ötəndən sonra.

Gözüntək atəşə köz çata bilməz,
Nazıntək qəlbimə yaz yata bilməz.
Bir ay dodaqların söz tuta bilməz:
Mirhəmid dişləyib öpəndən sonra.

*15 dekabr 2005*

## YERİNƏ

Allah bizi bu torpaqdan yaratdı,
Səpdi yer üzünə adam yerinə.
Hər insan ömrünə bir meyvə qatdı,
Mənə qoza düşdü badam yerinə.

Yusifin vüsalı illərə düşdü,
Məcnun Leyli deyib çöllərə düşdü,
Kərəm bir ah çəkdi, dillərə düşdü,
Yandı eşq oduna, şadam yerinə.

Sevgidə vüsalım ahım eylədi,
Dərdimi özümə şahım eylədi,
Mənə kasıblığı qohum eylədi:
Basıram bağrıma qudam yerinə.

Təbim tükənməyən qaynar bulaqdır,
Şükr edək nə qədər canımız sağdır.
Var- dövlət özgənin üstünə yağdı,
Məndən üz çevirdi: yadam yerinə.

Bu namərd dünyanın sifəti birdir,
Mirhəmid, ümidin dözüm, səbirdir,
Dünya ki, məşəqqət, zülm, cəbrdir,
Yerə gömüləydi qadam yerinə!

*24 fevral 2006*

## SALAM, İMKANLI QARDAŞ

*(Elin imkanlı oğullarına)*

Allah adamıyam - deyirsən, qardaş,
Bəs niyə həsrətik biri- birinə?
Kasıbı sevməsən, söyürsən birbaş
Ona qayğı gərək "söyüş" yerinə.

Özünü vətənin övladı bilsən,
Onda bu millətlə bir ağla, gül sən.
Tərifə güc verən dodaqsan, dilsən,
Sən get özünü qoy avam yerinə.

Azından çoxunun xəbəri yoxdur,
Acından toxunun xəbəri yoxdur,
"Ax"ından "ox"unun xəbəri yoxdur,
Kasıbı qoymurlar adam yerinə.

Millətin varlısı varlıya yanır,
Bir onu özünə məsləkdaş sanır.
Kasıb məzar gəzir,qəbrə boylanır,
Ölümə göz dikir salam yerinə.

Haqqa, ədalətə mən müntəzirəm,
Halalca şöhrətə qurban, nəzirəm.
Çoxdandır arayıb insaf gəzirəm,
Hələ ki, çatmayır sədam yerinə.

Varlı var dövləti bənzər bulağa,
Qətrəsin dadmayıb bir yetim, çağa.
Kasıbçün, yetimçün Tənha Gülağa[1],
Vuruşur meydanda davam[2] yerinə.

---

[1] *Gülağa Tənha - Rusiyada çalışan azərbaycanlı iş adamı.*
[2] *Davam - dava, savaş mənasında.*

Bir güllə, Mirhəmid, bil, bahar olmaz,
Atalar sözüdür: Boşalan dolmaz.
Səxasız var sahibinə “ağ olmaz“:
Atar cəhənəmin tamam yerinə.

*25 fevral 2006*

## QİYMƏTİNİ

Dünya parçalanıb dağıla bilər,
Yaxşılar almasa düz qiymətini.
Özgənin dəyərin hardan biləcək,
Bir insan bilməsə öz qiymətini.

Namərdlər keçsə də mərdlərdən başa,
Yenə mərd sipərdir atılan daşa.
Yüz dost yığılsa da, çatmaz qardaşa:
Atadan, anadan yoz qiymətini.

Elin şənliyində danışsan yasdan,
Ellər də adına "bağlayar dastan".
Tapar ağaların əynində baston,
Nökərin əynində bez qiymətini.

Bunu dərk eyləyir hər kamil insan:
Sözü qüdrət verib bizə Yaradan.
Çıxmaz işığlığa zülmətdən cahan,
Tək Mirhəmid bilsə söz qiymətini.

*20 dekabr 2006*

## RUHUM SEGAHA KÖKLƏNİB

*(2009-cu il noyabrın 28-də avtomobil qəzasında sağ qolum sınmışdı)*

Çalın ruhumun havasın,
Ruhum Segaha köklənib.
Dinləyin bəxtim davasın:
Qarğışa, aha yüklənib,
Ruhum Segaha köklənib.

Bu nə qəza - tapdı məni,
Talan edib çapdı məni,
Undum, xəmir yapdı məni:
Təndirdə kündəm güllənib,
Ruhum Segaha köklənib.

Ürəyim teldən nəzilib,
Göz yaşım seldən süzülüb.
Sağ qol bədəndən üzülüb,
Sol qol sıxılıb təklənib,
Ruhum Segaha köklənib.

Dərddən günüm olub ilim,
Toya[1] hazırlaşır elim.
Tanrını zikr edir dilim,
Əlim dərgaha diklənib,
Ruhum Segaha köklənib.

---

[1] *Oğlum Ramilin 8 dekabrda toyuna işarədir.*

Bu da mənə ömrün nəsi,
Kaş tapmasın dərd heç kəsi.
Arifin yanıqlı səsi:
"Qonaq sabaha bəklənib"[1],
Ruhum Segaha köklənib.

Mirhəmid, sus, salma haray,
Bəxt gətirsə, qış olar yay.
Sən fələyin saydığın say,
Rəhmə, pənaha şəklənib,
Ruhum Segaha köklənib.

*04 dekabr 2009*

---

[1] *Arif Babayevin oxuduğu "Yar bizə qonaq gələcək"" xalq mahnısı nəzərdə tutulur.*

## BAXIR

Dünyanın yaşını bilmək istəsən,
Nəçə min qərinə, əsrdən baxır.
Olub Axirətə bir əkin yeri:
İnsan əməliylə səpir dən, baxır.

Dünya bir qazandır: qaynar tovbatov,
O yandan qaçhaqaç, burdan qovhaqov.
Kimi hövsələsiz, kimi dəlisov,
Kimi götür-qoydan, səbirdən baxır.

Adam var qəlbi saf, dili şərbətdir,
Adam var bilinmir balıqdır, ətdir.
Adam var öz yolu, öz dəsti-xətti,
Adam var yad izdən, ləpirdən baxır.

Mirhəmid ömrünə məna düzdürür,
Adam var şeytanı yoldan azdırır.
Adam var içində dünya gəzdirir,
Adam var dünyaya qəbirdən baxır.

*05 noyabr 2013*

## ELƏ QURBAN

Təbiət nə gözəl bölüb:
Gün, həftə, ay ilə qurban.
Sevirəm[1] sözün deməyə,
Bir cüt dodaq dilə qurban.

Öz yeri qışın, yazın da,
Övladdan oğul, qızın da.
Elin sədəfli sazında
Mizrab sarı telə qurban.

Bülbül "işi" gül qoxumaq,
Pərvanə – oda toxumaq.
Mincə dəfə bəm oxumaq
Bircə kəsik zilə qurban.

Hər bülbülə öz çəməni:
Lalə, nərgiz, yasəməni.
Mənsə sevirəm Vətəni:
Şəki, Şirvan, Milə qurban.

İnsan - ağlı, kamalında,
Ürək - arzu, amalında.
Sevgililər vüsalında
Qollar incə belə qurban.

---

[1] *Sevirəm – Axı, gözəllərdə "sevirəm" sözünü təkcə dodaq, dil demir: qaş da, göz də, yeriş də, baxış da, hətta baş da, gülüş də, duruş da deyir, bildirir: hərəsinin öz "dili " var.*

Gözüm yarda gözə möhtac,
Çatma qaşlar dərdə əlac.
Darayanda qulac-qulac
Şana[1] qıvrım telə qurban.

Hər şairin söz aləmi,
Bir ürəyi, bir qələmi.
Sevməsəm öz yurd, elimi
Gedim daşqın, selə qurban.

Yarımla mən: bir ruh-bədən,
Bir anam var, bir də Vətən.
Mirhəmidi sair edən
Bu torpağa, elə qurban.

*10 dekabr 2013*

---

[1] *Şana – Farsca: yəni daraq.*

## OLUR

*(20 Yanvar şəhidlərinin əziz xatirəsinə)*

Məhəbbətdə neçə şərt var;
Vəfa əzəl başda olur.
Al - yanaqda, bal - dodaqda,
Atəş - gözlə qaşda olur.

Yerlə sürünməklik - tağda,
Ucalıq, məğrurluq - dağda.
Yumşaqlıq - gildə, torpaqda,
Sərtlik - qaya, daşda olur.

Qürur çatışmır çoxunda,
Həm acında, həm toxunda.
Yaraşıqlıq - boy-buxunda,
Ağıl ancaq... başda olur.

Kiminə dost kitab, qələm:
Elmli insan bir aləm.
Kimə - kabab,  dolma-kələm,
Ya da gözü aşda olur.

Kimi - eldə dağdan ağır,
Sözlərindən hikmət yağır.
Kimi - çağırma, ya çağır,
Məclislərdə başda olur.

Kim Vətən, elçün çalışar,
Daim ürəklərdə yaşar.
Qorxaq kölgədə dolaşar,
İgidlik savaşda olur.

Bir Vətən var, bir də anam:
Gərəkdir eşqində yanam.
Mirhəmid, demə cavanam,
Ölüm hər bir yaşda olur.

*20 yanvar 2014*

# ALLAH, BU MƏLƏKDİR, YOXSA Kİ İNSAN?!



## SƏNİ

Könlüm həmdəm seçibdir
Gözləri ceyran, səni.
Başqa cür böyüdübdür,
Bu yeni dövran səni.

Gül! deyirsən - gülürəm,
Öl! deyirsən - ölürəm.
Huri, Mələk bilirəm,
Bilmirəm İnsan səni!

Belə işvə, belə naz,
Başqa gözəldə olmaz.
Qələm qaş, gözü almaz,
Edib Yaradan səni.

Baxışın bir sonadır,
Eşqin məni sınadır.
Eşqimlə çal qanadı:
Gözlər asiman səni.

Qəlbim hər an səsləyir,
Vüsalını gözləyir,
Nazın çəkib bəsləyir,
Can içində can səni.

Bağ-çəməndə gəz bir az,
Gül-çiçəkdən üz bir az,
Həsrətimə döz bir az,
Üzməsin hicran səni.

Zülfün dəstə hörəydim,
Sinəm üstə sərəydim,
Ləbdən busə verəydim,
Edəydim mehman səni.

Mirhəmid, olsun, gərək,
Yar xoş arzu, xoş dilək.
Səbr et, eyləyər fələk
Ömri-firavan səni,
Şöhrəti-cahan səni,
Bəxtəvər insan səni!

*08 may 2005*

## AXTARIR

Nə müddətdir həsrətində qalmışam,
Gözüm yenə nazlı yarı axtarır.
Fəslim xəzan, xəzəl tək saralmışam,
Bahar könlüm çəmənzarı axtarır.

Sevgiylə qaynayıb, çağladığımız,
Sevincdən kövrəlib, ağladığımız,
Bir bulaq başında bağladığımız,
Əhd-peymanı, düz ilqarı axtarır.

Səbəb tapıb birini sən, birin mən,
Ayrılardıq cavanların köçündən.
Soyuq qışda əllərimin içindən,
Yanağına yağan qarı axtarır.

Günəş üzün ulduz, ayı danardı,
Yanaqların lalə kimi yanardı.
Könlüm gözlərini bahar sanardı,
Seyr edərdi çəmənzarı, axtarır.

Sinən bağdı: bir cüt bar boylanardı,
Toxunsaydım, atam evi yanardı,
Könlüm onu qoşa dünya sanardı,
Giləsinə həsrət narı axtarır.

Su düzdə arxıyla yetir vüsala,
Zirvədə ayrılır - olur şəlalə:
Dözmür ayrılığa, həsrət, məlala,
Göyə qalxır ahü-zarı, axtarır.

Sözlərimə gəl eyləmə sən şəkk, qız,
Dünya hələ yetirməyib sən tək qız:
Küsməyində “həftə səkkiz,mən doqquz“,
İldə bir yol barış barı, axtarır.

Mirhəmiddən nə deyibdir kim sənə?
Qəlbində yox səndən özgə kimsənə.
Artıq ölüb, göz yaşında çimsənə,
Ruhu qazdığın məzarı axtarır.

*09 may 2005*

## DÜŞÜBDÜR

Bahar fəsli bağça-bağı gəzərkən,
Gözüm xoş ətirli gülə düşübdür.
Qoxusun güllərin alıb ətrindən,
Məst edən fitnəyə-felə düşübdür.

Darayıb telini yana salıbdır,
Naz satıb, aşiqin qana salıbdır,
Cəm edib dərdləri cana salıbdır:
Xəstə canım əldən-ələ düşübdür.

Nə gözəl yaraşır bu qaş, göz sənə,
Gözlərini oğrun-oğrun süzsənə.
Darayıb telini, gülün düzsənə,
Salsana hörüyün belə, düşübdür.

Gözəllik Tanrıdan onda cəm olub,
Əzəldən aşiqə rəhmi kəm olub.
Həsrət adlı canım yaxan şəm olub,
Şirin vüsal, bəd müşkülə düşübdür.

Ruhlar təzələnir min bir nazında,
Bülbüllər ötüşür xoş avazında.
Vəsfinə köklənən könül sazında,
Mizraba qoşulub, telə düşübdür.

Atıb gedib, demir: Yarım hardadır?
Könlüm onsuz borandadır, qardadır.
Meylim güldə, gülün meyli xardadır:
Mənimki taledən belə düşübdür.

Bilinmir sevginin əzəli, sonu,
Əbədi atəşdir əzəl qanunu.
Gəl mənə bərabər tutma Məcnunu:
Adım ondan artıq dilə düşübdür.

Yarımı yanımda görmək istərəm,
Gəlməsə həsrətdən bağlaram vərəm.
Ah çəkib atəşdə qovrulan Kərəm,
Mirhəmid adında külə düşübdür.

*19 may 2005*

## MƏNƏ

Səhər bağda gözəl bir qız,
Ətirli gül dərdi mənə.
Gülü öpüb, qoxlayıb qız,
Gülə-gülə verdi mənə.

Çatıbdır sevda həddinə,
Heyranam boyun qəddinə.
Sevməsə, qəlbin həddi nə? -
Eyhamın göndərdi mənə.

Dedim: Ay qız, gəl ol sonam,
Qoysana eşqində yanam!
Gördü ki, kasıb oğlanam,
Bol eylədi dərdi mənə.

Alıb ondan yaraşığı,
Ay, Günəş saçır işığı.
Qaraldıb dünya işığın,
Görməyə göz verdi mənə.

Olsun mənə yar istədim,
Sanki yayda qar istədim.
Məcnunluğa yer istədim,
Gəzməyə düz verdi mənə.

Mən dinlədikcə pərini,
Bal edirdi sözlərini.
Bir cüt qara gözlərini,
Sinəmə köz verdi mənə.

Özüm özümdən qaçıram:
Təkcə ondan söz açıram.
Məhəbbətiylə uçuram,
Qolları şapərdi[1] - mənə.

Getməz gözümdən aralı,
Onsuz ürəyim daralı.
Kim oxladı bu maralı?
Göstərin namərdi mənə.

Şana taxmışdı telinə,
Həna yaxmışdı əlinə.
Doladı qolum belinə,
Söylədi: Kəmərdi mənə!

Gah imtahan, sınaq etdi,
Gah məzəmmət, qınaq etdi.
Sevgisinə qonaq etdi:
Nazdan süfrə sərdi mənə.

Mirhəmidtək göynəməyə,
Hələ min il qalıb neyə.
Bu baharda evlənməyə,
Nəhayət, söz verdi mənə.

*09 iyun 2005*

---

[1] *şapər - farsca qanad*

## MƏNİM

Küsüb gedib nazlı yarım,
Göyə qalxır ahım mənim.
Aləm zülmət, gecə yarı,
Doğmur göydə mahım mənim.

Heç bilmirəm nə etmişəm,
Xar olub güldə bitmişəm?
Gülzara yarsız getmişəm -
Böyükdür günahım mənim!!!

Yar gəzən yeri öpürəm,
Yollarına su səpirəm.
Hər əmrinə müntəzirəm:
Odur qəlbə şahım mənim.

Zülflərin qulac bilirəm,
Boynuma dolac bilirəm,
Dərdimə əlac bilirəm,
Ümidim, pənahım mənim.

Mən onu bir şəm sanıram,
Dövrəsində fırlanıram.
Məhəbbətiylə yanıram,
Kərəm çəkmiş ahım mənim.

Eşq səfasına gəzirəm,
Hər cəfasına dözürəm.
Düşmən qafasın əzirəm,
Qüdrətli silahım mənim.

Dadında zülüm çəkirəm,
Odunda külüm tökürəm,
Önündə belim bükürəm:
Qibləm, səcdəgahım mənim.

Bir dəfə baxaydı bizə,
Gün doğaydı üzümüzə,
Nur yağaydı ömrümüzə,
Başlar intibahım mənim.

Sinəsində bar dəyəndə,
Gəl qoxula nar! deyəndə,
Mirhəmidə yar deyəndə,
Açılar sabahım mənim!

*09 iyun 2005*

# DİLBƏRİN

Yenə şux bəzənib çıxdı qarşıma,
İşıq salır günəş üzü dilbərin.
Qəmzələri bir kələkdir başıma,
Canlar alır süzgün gözü dilbərin.

İpək tellərinə şana taxıbdır,
Nazik əllərinə həna yaxıbdır.
Bir baxmaqla yar qəlbini yaxıbdır:
Sinəmdədir yanar közü dilbərin.

Güləydi, könlümü saz eyləyəydi,
Son bahar ömrümü yaz eyləyəydi.
Rəhm edib bir qədər az eyləyəydi:
Canım alır işvə-nazı dilbərin.

Gözlərində dəniz məskən salıbdır:
Maviliyi gözlərindən alıbdır,
Dalğınlığı tellərindən alıbdır,
Dalğalıdır ümman gözü dilbərin.

Sözləritək şirinlikdə bal hanı,
Körpə üçün xatırladır laylanı.
Sanki Məcnun haraylayır Leylanı,
Çəmənzardır çölü, düzü dilbərin.

Bu paklıqda çeşmə olmaz, çay olmaz,
Bu nurluqda ulduz olmaz, ay olmaz.
İlində payız, qış, nə də yay olmaz,
Başlayır ömrünün yazı dilbərin.

Yar bağında könlüm gülə tuş olub,
Sevgisindən qanadlanıb quş olub.
Şux telləri yarçun saza qoşulub:
Dilindədir xoş avazı dilbərin.

Mirhəmidəm, məhəbbətdən yazıram,
Eşq yolundan nə sapır, nə azıram.
Yolunda qurban getməyə hazıram:
Kifayətdir bircə sözü dilbərin.

*12 iyun 2005*

## SƏNİ ALARAM

Nə gözəl biçimdə yaranıbsan sən,
Atan, anan versə, səni alaram.
Eşq gölündə çimib, daranıbsan sən,
Tellərinin arasında qalaram,
Atan, anan versə, səni alaram.

Nə gözəl verilib bu qaş, göz sənə,
Gözəllikdə kim deyər bir söz sənə.
Hey deyirsən: həsrətimə dözsənə!
Səndən ayrı bir gül kimi solaram,
Atan, anan versə, səni alaram.

Camalına seyran kimi gəlmişəm,
Kamalına heyran kimi gəlmişəm,
Qucağına mehman kimi gəlmişəm:
Qoşa nara həsrət meyil salaram,
Atan, anan versə, səni alaram.

Bir cüt gözün anır odu, atəşi,
Yanaqların dan yerinin Günəşi.
Könlüm olub ləblərinin peşkeşi:
İncə gülüşünə qurban olaram,
Atan, anan versə, səni alaram.

Dərdlərimi çatdırmısan minə sən,
Haqqı tanı: gəl imana, dinə sən.
Rəhm eləyib, izn versən mənə sən,
Qollarımı incə belə dolaram,
Atan, anan versə, səni alaram.

Məhəbbətin şanası var telində,
Gül tutubsan gül qoxulu əlində.
Ağ duvaqda bizə gəlin gələndə,
Yoluna döşənmiş xalı olaram,
Atan, anan versə, səni alaram.

Küçəmizdə toy mağarı qurular,
Dinər zurna, rəqs edənlər yorular.
Mirhəmidəm, dünya mənə nur olar,
Sən bir gəlin, mən də bir bəy olaram,
Atan, anan versə, səni alaram!

*17 dekabr 2005*

## BİLMƏZ

*(Metroda rastlaşdığım bir gözələ ithaf)*

*Yenə cilvələnib çıxdı qarşıma,*
*Bilmədim insandır, mələkdir, nədir.*
*Əqlimi, huşumu aldı başımdan,*
*O, bahar ətirli çiçəkdir, nədir.*
**Səməd Vurğun**

Metroda önümdə bir canan durdu,
Ətirli gül idi - toz, ləkə bilməz.
Bir anda qəlbimdə bir bina qurdu,
Bircə otağını il tikə bilməz.

Sanki nurdan yaranmışdı, gözəldi,
Dedim: Dünya, daha işin düzəldi.
Bu ki, məhəbbətdən sözdü, qəzəldi:
Vəznin Ömər Xəyyam, Rudəki bilməz.

Gözəl güldür - gözəl güldən doğulub, -
Gözəl ayda, gözəl ildə doğulub.
Hansı oba, hansı eldə doğulub?
Nə Muğan,nə Şirvan, nə Şəki bilməz.

Bu gözəldə ağırlıq var, çəki var,
Busələrdən dodağının ləki var.
Bu gözəli doyururlar nə ki var,
Yoxsa ki, nazını fil çəkə bilməz!!!

Könlüm istər bu gözələ çata tək,
Ağ sinəyə başın qoya, yata tək.
Bu gözəldən bir də qiyamatadək,
Yəqin, arvad doğmaz, ər əkə bilməz.

Gözəl yox, onuntək aşiqin süzən,
İgiddir səbr edib cəfaya dözən.
Ləbindən bal dadıb, gözündə üzən,
Nədir mey, piyalə, nəlbəki - bilməz!

Bütün gözəlliklər onda cəmlənib:
Dərd çəkməkdən şux qamətim xəmlənib[1].
Mirhəmidəm, könlüm elə qəmlənib,
Zarafat, atmaca, məzhəkə bilməz.

*18 dekabr 2005*

---

[1] *xəmlənib - ərəbcə, yəni əyilib, bükülüb.*

## NƏ YEMƏLİ CANDI BU CAN!

Bu qızı iştahım çəkir,
Nə yeməli candı bu can!
Ürək dözmür, ahın çəkir:
Dərdə, qəmə kandı[1] bu can,
Nə yeməli candı bu can!

Dərdim çoxdur, kimsə bilməz:
Onsuz bədən quru qəfəs.
Onunla alıram nəfəs,
Damarımda qandı bu can,
Nə yeməli candı bu can!

Eşitmişəm sədasını:
Çəkmək olmur ədasını!
Durum alım qadasını:
Can içində candı bu can,
Nə yeməli candı bu can!

Ətrin güldən alır yazın,
Təməlidir işvə, nazın.
Sinəsində çalır sazın:
Sevgidən dastandı bu can,
Nə yeməli candı bu can!

Xoş arzudu, diləkdi bu,
Qəlbə sərin küləkdi bu,
Bəşər deyil, mələkdi bu:
Huridi, qılmandı bu can?
Nə yeməli candı bu can!

---

*[1] kan - farsca quyu deməkdir.*

Aşiqi gizli yandırır,
Sevgi, məhəbbət qandırır,
Dini, imanı dandırır,
Əcəb "müsəlmandı" bu can,
Nə yeməli candı bu can!

Söhbəti, sözü himlədir,
İşi ovsun, tilsimlədir.
Sevgi adında cümlədir,
Eşq adlı fərmandı bu can,
Nə yeməli candı bu can!

Dili şirin, ləbi baldı:
Görən tək ağlımı aldı.
Mirhəmidə meyil saldı,
Onu yarı sandı bu can,
Nə yeməli candı bu can!

*18 dekabr 2005*

## AY GÖZƏL

Naz ilə yollansan bağa, çəmənə,
Açar bağ-çəməndə güllər, ay gözəl.
Bənzərsən firuzə, yaqut, yəmənə,
Tərifin eyləyir dillər, ay gözəl!

Qulac zülflərində şanalar gəzər,
Darayar naz ilə, naxışın düzər.
Yel vurar yayılar sinəni bəzər,
Dağıdar bağrımı tellər, ay gözəl!

Nə ola, bəxt səni mənə yetirə,
Xoş bir gülsən, bağ-bağçamda bitirə.
Hər kəs nəzər edib gözə gətirə,
Sancılsın gözünə millər, ay gözəl!

Sən ki, cənnət bağçasında mələksən,
Ruhumu yaşadan arzu-diləksən,
Qəlbi sərinlədən həzin küləksən,
Oxşayar qəlbimi yellər, ay gözəl!

Şirin sözüm, şirin kəlməm sənindir,
Şirin deyib, şirin gülməm sənindir,
Bir naxışam, şirin ilməm sənindir,
Sənindir toxuyan əllər, ay gözəl!

Badamı göz üstə kaman qaşa bax,
Qəmli gözlərimdən axan yaşa bax,
Sinəndəki ürək adlı daşa bax,
Qocalıram, qovur illər, ay gözəl!

Girəydi qollarım qoluna sənin,
Keçəydim sağına,soluna sənin.
Dikilib gözlərim yoluna sənin,
Dərgaha üzanıb əllər, ay gözəl!

Mirhəmidi öz şikarın bil barı,
Çal kipriyin, yar bağrını, dəl barı,
Can üstdədir, son görüşə gəl barı,
Gəlməsən qınayar ellər, ay gözəl!

*16 oktyabr 2006*

## BU QIZIN

Yenə nazla gəlib durub qarşımda,
Necə alım qadasını bu qızın?
Nə sevdadır, ağıl qoymur başımda,
Əcəb gördüm “əta“sını bu qızın,
Necə alım qadasını bu qızın?

Göz vurulub - ürək düşüb çətinə,
Dil bacarmır nə danışa, nə dinə.
Gözəllikdə çatıb Leyli həddinə,
Eşitmişəm sədasını bu qızın,
Necə alım qadasını bu qızın?

Sanki qəlbin atəşini duymayır,
Eşqim sirrin el-obaya yaymayır,
Məndən özgə bir adamı saymayır:
Çəkmək olmur ədasını bu qızın,
Necə alım qadasını bu qızın?

Nura dönüb qəlbim çıraq eyləsin,
Nəbadə özünü qıraq eyləsin.
Allah özü məndən iraq eyləsin,
Evlər yıxan xətasını bu qızın,
Necə alım qadasını bu qızın?

Min naz ilə alır mənim canımı,
Dəyişdirir damarımda qanımı.
Bir gün edəcəyəm evim xanımı -
Qoxlayacam butasını bu qızın,
Mən alacam qadasını bu qızın,
Mən... alacam qadasını bu qızın.

*07 dekabr, 2004*

# SƏNİ VƏSF ETMƏYİM, KİMİ VƏSF EDİM



## MƏNİ TƏBRİK EDƏN DİLİNƏ QURBAN

Şerim çap olundu, təbrik eylədin,
Məni təbrik edən dilinə qurban.
Gözucu şəklimə nəzər eylədin,
Nurdan axıtdığın selinə qurban,
Məni təbrik edən dilinə qurban.

Sən mənim ömrümü Qobustan etdin:
Eşqə, məhəbbətə bir dastan etdin.
Əkdin eşq güllərin - gülüstan etdin:
Ömrə ətir saçan gülünə qurban,
Məni təbrik edən dilinə qurban.

Sənin sözlərindən ruhlandı canım:
Qaynadı, dəyişdi damarda qanım.
Gözündən boylandı Azərbaycanım;
Şəki, Şirvanına, Milinə qurban,
Məni təbrik edən dilinə qurban.

Salmısan aşiqi eşqin çölünə,
Baxışın nur salsın barı yoluna.
Dönmüsən mənimçün sevgi gölünə,
Bir gün aparacaq selinə qurban,
Məni təbrik edən dilinə qurban.

Mən bülbüləm - bənzəyirsən gülə sən,
Bürünmüsən Mirhəmidçün tülə sən.
Toy qurula, bizə gəlin gələsən,
Olaram sən adlı gəlinə qurban,
Məni təbrik edən dilinə qurban.

*07 yanvar 2005*

# MƏNİ

Ay gözləri ala ceyran,
Qoyma yana-yana məni.
Qıyma gözüm dola, ceyran,
Salma bəd gümana məni.

Odlamısan - yanasıyam,
Səni canım sanasıyam.
Mən mərifət sonasıyam,
Tay tutma nadana məni.

Tellərini saz bilmişəm,
Baxışını naz bilmişəm,
Ömrüm sənlə yaz bilmişəm,
Salma zimistana məni.

Boyun bənzər sürahıya,
Xəstənəm, sal siyahıya.
Göndərmə özgə qapıya
Təbibə, loğmana məni.

Dərdlərimin əlacısan,
Baxma belə qiyqacı sən.
Özün gözəllər tacısan,
Əymisən damana[1] məni.

---

[1] *daman - ərəb. ətək*

Nola, bir bizə gələydin,
Pünhan dərdimi biləydin,
Ağlatmısan - güldürəydin,
Bağlaydın imana məni.

Mirhəmidəm, eşqim coşur,
Adınla ellər dolaşır.
Söz xəzinəm aşıb-daşır:
Döndərdin ümmana məni.

*09 yanvar 2005*

## BİLİRSƏNMİ, SƏN NƏSƏN?!

Eşq aləmi səni canı sanır ki,
Görən, özün bilirsənmi, sən nəsən?!
Səni görən bu dünyanı danır ki:
Dünya, nəsən?! Zaman, nəsən?! Gün, nəsən?!
Görən, özün bilirsənmi, sən nəsən?!

Mənim üçün İlahidən diləksən,
Sehrindəyəm: nə fitnəsən, kələksən?
Gah can verən, gah can alan mələksən,
Gah məzarım qazırsan kəfənlə sən,
Görən, özün bilirsənmi, sən nəsən?!

Könül aşiq sənin kimi gözələ,
Viran könlüm bir də çətin düzələ.
Bənzəyirəm son baharda xəzələ -
Fırlayırsan sur[1] gücündə neylə sən,
Görən, özün bilirsənmi, sən nəsən?!

Süzgün gözlər sandı məni naşımı?
Baxışıyla kül eylədi yaşımı.
Aldın ağlı, qoydun huşsuz başımı:
Əvəz etdin dumanla sən, çənlə sən,
Görən, özün bilirsənmi, sən nəsən?!

Gah dinmirsən, danışırsan himlə sən,
Ovlayırsan aşiqi tilsimlə sən.
Sevgi adlı bircə kəlmə cümləsən,
Hökm edirsən həm yerdə, həm göydə sən,
Görən, özün bilirsənmi, sən nəsən?!

---

[1] *Sur* - Qiyamətdəki İsrafilin suru nəzərdə tutulur..

Zülm edirsən, fəxr edirsən zülümlə,
Yandırırsan, oynayırsan külümlə.
Yalan desəm, doğra məni, dilimlə,
Tikələrim sağ-soluna çinlə sən,
Görən, özün bilirsənmi, sən nəsən?!

Eşq aləmi sükansız bir gəmidir,
Kiminə qəm, kimə qəm məlhəmidir.
Öldürmüsən, dəfn eylə Mirhəmidi,
Qal ruhuyla bu dünyada inlə sən,
Göz yaşını silirsənmi dənli sən,
Görən, özün bilirsənmi, sən nəsən?!
Görən, özün bilirsənmi, sən nəsən?!

*19 fevral 2005*

## XƏYALIN

Yenə düşüncəmi çapıb talayır,
Ruhumun mələyi ülkər xəyalın.
Susamış dodaqtək fikrim yalayır,
Yuxumun küləyi dilbər xəyalın.

Öldürürsən, dərdlərimi bil öncə:
Həsrətindən qəlb incəldi telincə.
Sinə meydan, zülf pərişan, bel incə,
Üstündən də gümüş kəmər xəyalın.

Bir an məni tərk eləyib getməyir,
Yurdu - ürək, özgə yerdə "bitməyir",
Dərd azalmır, nədə sona yetməyir:
Qeyd aparır "qələm-dəftər" xəyalın.

Gah qorxudur,gah da birdən güldürür,
Gah ağladır, göz yaşımı sildirir.
Rəhm eləmir, gündə yüz yol öldürür,
Qanım tökür əldə xəncər xəyalın.

Gah ruhumu uşaq kimi bələyir,
Layla deyir, min bir arzu diləyir.
Məlhəmini yaram üstə çiləyir,
Abi-Zəm-zəm, Müşki-ənbər xəyalın.

Gah dindirər şirin-şəkər sözüylə,
Gah can verər,gah can çəkər gözüylə.
Ay Bəstəboy, ömrüm bəzər nazıyla,
"Bəstənigar,"Mahur,"Şüştər" xəyalın.

Mirhəmidəm, ömrüm bahar olaydı,
Bir fəsli mən, bir fəsli yar olaydı.
Həyatıma xanım-evdar olaydı,
Bəzəyəydi axşam-səhər xəyalın,
Eşqə vüqar, ömrə sərvər xəyalın,
Həm mətanət, həm hünərvər xəyalın.

*27 fevral 2005*

## GÜLÜM

Dünya sakit bir axara dalmışdı,
Sən gəldin, dəyişdi axarı, gülüm.
Sənsiz eşq aləmi sanki bir qışdı,
Səninlə yetişdi baharı, gülüm.

Ala gözlər oğrun-oğrun süzüldü,
Can dözmədi yanğısına, üzüldü.
Şux gözəllər cərgə-cərgə düzüldü,
Sən oldun hamıdan yuxarı, gülüm.

Eşq yuvası güldən-gülə köçülməz,
Yar şirindir - məhəbbətdən keçilməz.
Yar ləbi var, özgə şərab içilməz,
Aşiq qıtlıq çəkməz su sarı, gülüm.

Darasam telini - tellər sevinər,
Oxşasam belini - əllər sevinər.
Çıxsan seyrangaha çöllər sevinər,
Anar çəmənzarı, gülzarı, gülüm.

Qaradır saçının, gözünün rəngi,
Günəşi mat qoyur üzün ahəngi.
Qorxutmaz qızların yüzünün cəngi:
Kipriyin bir qoşun süvarı, gülüm.

Gülüşünlə ruha dolan məzəsən,
Dərd verib aşiqi saldın düzə sən.
Can üstəyəm, bir gəlsənə bizə sən,
Sondadır ömrümün qatarı, gülüm.

Eşqin Mirhəmidə verir qol-qanad,
Qoşa narın məndən saxla amanat.
Bizim sevgi şirin qəzəl, muğamat:
Mən “Rastı“, sən başla “Qatarı“, gülüm.
Bizə həmdəm olsun qoy Tanrı, gülüm.

*01 mart 2005*

## SƏNİNDİR

Şerimdə bolluca adlar olsa da,
Bütün gözəllərin adı sənindir!
Şerimə hər gözəl bir dad salsa da,
Şerin, qəzəllərin dadı sənindir!

Gözlərin Məcnunu andırır məni,
Sözlərin poladtək sındırır məni.
Zənn etmə, özgələr yandırır məni,
Sinəmin közünün odu sənindir!

Könlüm vurulubdur qaşı kamana,
Aşiq vida deyib dinə, imana.
Eşqim gözlərindir, bənzər tərlana,
Kipriklərin - cüt qanadı, sənindir!

Bir baxışla ağlım etdin zayil sən,
Salaydın gözümə, barı, meyl sən.
Adını çəkməyə razı deyilsən,
Gözəllərin tərs inadı sənindir!

Dərd verdin: dərdimi özgələr bilir,
Böyüklər, kiçiklər, körpələr bilir,
Həm qoca, həm cavan, südəmər bilir:
Dərdimin havası, notu sənindir!

Sevgi meydanında aslansan, şirsən,
Öldürüb ruhumu, salma həşir sən.
Gündə yüz yol bağrım başın deşirsən,
Neştərlərdən ucu iti sənindir!

Topla məhəbbətin gülün, dəstə qoy,
Doyunca qoxula, könlün məstə qoy.
Eldə dastan olan eşqin, Bəstəboy,
Zatı Mirhəmidin, südü sənindir!

*11 mart 2005*

# DÖZƏ BİLMİRƏM

Hicran əzabıyla gəl üzmə məni,
Gülüm, hicranına dözə bilmirəm!
Boğur hicran adlı dənizmi məni?
Vüsal limanına üzə bilmirəm,
Gülüm, hicranına dözə bilmirəm!

Getmisən, mənimçün dünyalar gedib,
Həsrətəm damlaya, dəryalar gedib,
Təkcə həqiqət yox, röyalar gedib,
Xəyaltək çölləri gəzə bilmirəm,
Gülüm, hicranına dözə bilmirəm!

Əlvida demişəm çiçəyə, gülə,
Çətin ruhum dinə, ürəyim gülə.
Xəyalın qovuşub diləyim ilə:
Hansı çox sevinir - yoza bilmirəm,
Gülüm, hicranına dözə bilmirəm!

Səninlə bahardım - olmuşam qış mən,
Sən mənim ömrümsən - ömrə naxış mən.
Hicran aramızda sərt yağı, düşmən,
Sənsiz bu düşməni əzə bilmirəm,
Gülüm, hicranına dözə bilmirəm!

Bülbülün məskəni gülün budağı,
Qəlb evim səninçün gəlin otağı.
Qayıt gəl, bəzəsin əlin otağı:
Cehizin otağa düzə bilmirəm,
Gülüm, hicranına dözə bilmirəm!

İnsafsız, halımı düşün bir anlıq:
Tərk etdin qəlbimi, qaldı viranlıq.
Sənsiz dünya mənə oldu qaranlıq:
İşığı zülmətdən sezə bilmirəm,
Gülüm, hicranına dözə bilmirəm!

Mirhəmidəm, aldın eşq hədəfinə,
Öldürdün, ruhumu bükdün kəfənə.
Sən dəfn et - bədənim yerə dəfinə:
Vətən təzə? Dünya təzə? - bilmirəm,
Gülüm, hicranına dözə bilmirəm!
Qayıt, hicranına dözə bilmirəm!

*14 mart 2005*

## HARDASAN?

Yenə könlüm səni gəzib arayır,
Ay eşqimin nazlı yarı, hardasan?
Xəyalən qoxlayıb telin, darayır,
Oxşayır sinəndə narı, hardasan?

Baxçamızda gülü-reyhan bitmisən,
Ətrinlə ruhumu heyran etmisən.
Bağlayıb mənimlə peyman, getmisən,
Unutdunmu düz ilqarı, hardasan?

Qəlb evimə gəl, qəlbini gətir sən,
Eşqimizdən hicranı qov, itir sən.
Həsrət canım vüsalına yetirsən,
Əriyər eşqimin qarı, hardasan?

Vurulmuşam səndə qara gözə mən,
Möhnətindən üz tutmuşam düzə mən.
Nə müddətdir həsrətəm bir sözə mən,
Ömür artıq olub yarı, hardasan?

Aşiqinəm, əhvalıma qıl nəzər,
Zülm etməkdən cana doyar zülm, bezər.
Bu zillətə mən dözürəm, kim dözər?
Ay könlümün zülmkarı, hardasan?

Sevən könül aşiqini yaxarmı?
Şimşək olub ürəyində çaxarmı?
El içində özünə ad çıxarma:
“Aşiqinin sitəmkarı“, hardasan?

Mirhəmidəm, köç yanımda qal mənim,
Oğrun gözün süz, canımı al mənim.
Nə tez etdin saçlarımı çal mənim:
Xatırladır dağda qarı, hardasan?
Ay ömrümün ilk baharı, hardasan?

*30 aprel 2005*

## SƏNİN

Bir gün bağça-bağa düşəydi yolun,
Olaydım yoluna yoldaşın sənin.
Naz ilə girəydi qoluma qolun,
Olaydım qoluna qoldaşın sənin.

Qoxlayıb ətirli gülün, dərəydin,
Bağlayıb dəstini, telin hörəydin,
Mənə ürəyinin sirrin verəydin:
Olaydım könlünə sirdaşın sənin.

Bir qonaq olaydım dilə, dodağa,
Edəydim canımı cana sadağa.
Dönüb şəbnəm olan üzə, yanağa,
Olaydım süzülən göz yaşın sənin.

Naz ilə yaxaydın həna əlinə:
Görkəmin oxşayır nazlı gəlinə.
Gümüş kəmər bağlayaydın belinə,
Alaydı canımı göz-qaşın sənin.

Bağında neçə gül, reyhan əkilib,
Hüsnünə neçə göz heyran dikilib,
Üzünə Cənnəti-rizvan çəkilib,
Tanrı özü olub nəqqaşın sənin.

Ürəyimi yanar közə atmısan,
Canımı bir süzgün gözə satmısan,
Dağ çəkib sinəmə, hey ağlatmısan,
Olub göz yaşlarım “daş-başın“ sənin.

Bağlamısan Mirhəmidi telinə,
Canı qurban gedib fitnə-felinə.
Öldürmüsən, ağlayırsan ölünə,
Əlinlə yazılıb başdaşım sənin.

*06 may 2005*

## NAZ ELƏSƏNƏ

Rastlaşdıq səninlə bir xoş çəməndə,
Süzüb gözlərini naz eləsənə!
Qaşların qoymadı can qala məndə,
Taqətsiz könlümü saz eləsənə,
Süzüb gözlərini naz eləsənə!

Gördüm səni, elə bildim röyadır:
Sən tək gözəl taprmaq mənə xülyadır.
Oğrun gözün sevgi adlı dəryadır,
Mehman eylə, möhtacam giləsinə,
Süzüb gözlərini naz eləsənə!

Gözlərim önündə qaynadı həyat,
Yarandı təzədən sanki kainat.
Canlandı gözümdə mağar, toy-büsat,
Qarışdım, məst oldum min nəşəsinə,
Süzüb gözlərini naz eləsənə!

Qulac tellərini ziyarət etdim,
Gözün dəryasında boğuldum, itdim.
Ləbindən öpəndə özümdən getdim -
Aldı ağuşuna ağ buxaq, sinə,
Süzüb gözlərini naz eləsənə!

Özümü Cənnəti-rizvanda bildim,
Sevincdən ağladım,göz yaşım sildim.
Sən kiprik çaldıqca öldüm, dirildim,
Canımı yüz aldın, bir can versənə,
Süzüb gözlərini naz eləsənə!

Qəlbim dağlatmaqçun gəldin dünyaya?
Ömrüm çağlatmaqçun gəldin dünyaya?
Gözüm ağlatmaqçun gəldin dünyaya?
Güldürüb, halımı saz eləsənə,
Süzüb gözlərini naz eləsənə!

Getmişdin, gözümü yaş eyləmişdin,
Sinəndə qəlbini daş eyləmişdin,
İlk bahar ömrümü qış eyləmişdin,
Qayıdıb, təzədən yaz eləsənə,
Süzüb gözlərini naz eləsənə!

Ömrünün ömrümlə hey dəmi olsun,
Fərq etməz: yerdəmi, göydəmi olsun.
Könlünün Mirhəmid həmdəmi olsun,
Gündüz bəxş eyləsin hər gecə sənə,
Süzüb gözlərini naz eləsənə!

*24 may 2005*

## NAZINA QURBAN

Hər dəfə görəndə süzdürüb gözün,
Mənə bol etdiyin nazına qurban!
Gizlin yandırırsan: gözlərin - közün,
Odunun çoxuna, azına qurban,
Mənə bol etdiyin nazına qurban!

Şirin bir nəğməsən, qəlbə axırsan,
Od yağan şimşəktək gahdan çaxırsan.
Kəskin yandırırsan, həzin yaxırsan,
Sinəmə səpdiyin közünə qurban,
Mənə bol etdiyin nazına qurban!

Dönüb zümzüməyə, şirin avaza,
Soyuq qış ömrümü çevirdin yaza.
Pərişan telləri bağlayıb saza,
Sinəndə çaldığın sazına qurban,
Mənə bol etdiyin nazına qurban!

Yanmağa qəlbimi şəm eyləmisən,
Heyif, insafını kəm eyləmisən.
Qızları başına cəm eyləmisən,
Səntək gözəllərin yüzünə qurban,
Mənə bol etdiyin nazına qurban!

Zülfünü yanakı tökmüsən üzə,
Az qalır aşiqin canını üzə.
Möhtacam ömrümə tac olun sözə:
Sevirəm dediyin sözünə qurban,
Mənə bol etdiyin nazına qurban!

Nazını çəkirəm necə, bilirsən,
Dözürəm həm gündüz, gecə, bilirsən,
Eşqsiz ömür gəlməz vecə, bilirsən:
Bələnər illərin tozuna, qurban,
Mənə bol etdiyin nazına qurban!

Camalın günəşdir sanki, nur saçır,
Xəyalım vüsalın zövqüylə uçur.
Sən gəzən yerlərdə gül-çiçək açır,
Dönmüsən illərin yazına, qurban,
Mənə bol etdiyin nazına qurban!

Gülüm, Mirhəmidi aşiqin bil sən,
Onunla ağlayıb, onunla gül sən.
Qəlbimi özünə yurd yeri bilsən,
Olaram taledən yazına qurban,
Mənə bol etdiyin nazına qurban!

*26 may 2005*

## BAŞDAŞIMA BAXAN GÖZƏL

Yenə nə qaş-göz atırsan,
Bulaq üstə çıxan gözəl?
Ocaq çatıb, köz satırsan,
Yar qəlbini yaxan gözəl.

Salmısan məni oyuna,
Qorxuram düşəm quyuna.
Qarışıb bulaq suyuna,
Ürəyimə axan gözəl.

Gəzirsən bağı, çəməni,
Görənlər gül sanır səni.
Nazla dərib bənövşəni,
Sinəsinə taxan gözəl.

Üzün Savalanın qarı,
Alıb əldən ixtiyarı.
Yetişibdir qoşa barı,
Nar bağıdır yaxan, gözəl.

Bu dünya mənli, sənlimi?
Dünya önlü, mən önlümü?
Dünyaya sığmaz könlümü,
Gözlərində sıxan gözəl.

Yandırmaq səndə bir peşə:
Könlüm alışıb atəşə.
Dönüb bir nurlu günəşə,
Taleyimə doğan gözəl.

Özün uydun kef, nəşəyə,
Atdın məni qəm-guşəyə.
Eşq səmasında şimşəyə
Dönüb, qəlbə çaxan gözəl.

Göz yaşımdan gülab çəkdin,
Canım alıb, savab əkdin,
Kipriyinlə kabab çəkdin:
Qəlbim şişə taxan gözəl.

Mirhəmidəm, çıx qarşıma,
Bir nəzər qıl göz yaşıma.
Baxmayıb cavan yaşıma,
Başdaşıma baxan gözəl.

*21 iyun 2005*

## GƏZƏN QIZ

Çıxıb çəmən seyrinə
Bağça, bağı gəzən qız,
Qarış lalə rənginə,
Al geyinib, bəzən, qız.

Ürkəktək baxmaq üçün,
Şimşəktək çaxmaq üçün,
Yandırıb yaxmaq üçün,
Gözün nazla süzən qız.

Bənzər gözəllər xasına,
Əndam uyur libasına.
Atıb eşqin cəfasına,
Aşiqini süzən qız.

Bürünüb sehrli dona,
Atəş salıb qəlbə, cana.
Olub bir yaşılbaş sona,
Eşq göləndə üzən qız.

Sənsən könlüm həmdəmi,
Gəl yox eylə dərd-qəmi.
Meydan edib sinəmi,
Yaraları düzən qız.

Sən Əsli, mən Kərəməm,
Dərdindən vərəmlərəm.
Özgəsini sevmərəm,
Şadlığından süzən qız.

Çəkmisən qaşa vəsmə:
Kükrəyib, coşub əsmə.
Desəm: toya tələsmə,
Küsüb dodaq büzən qız.

Gerçək ol, qaç xülyadan,
Eşqi qəbul et, ya dan.
Məhəbbətsiz dünyadan,
Ümidini üzən qız.

Mirhəmid eşqə and içir,
Yolunda canından keçir,
Sənə şeirdən don biçir:
Gey əyninə, bəzən, qız.

*22 iyun 2005*

## SƏNSƏN, GÖZƏLİM

*(Xalq şairi Süleyman Rüstəmə nəzirə)*

*"Sən gözəllər gözəlindən də gözəlsən, gözəlim!"*
**S.Rüstəm**

Dünyada nə qədər desən, gözəl var,
Bütün gözəllərdən sənsən gözəlim.
Gözəllər qəlb alan bir sözü anar:
Şirin sözüm, şerim, sənsən qəzəlim,
Bütün gözəllərdən sənsən gözəlim!

Bənzərsən can alan nazlı mələyə,
Aldadıb aşiqi, saldın tələyə.
Dönmüsən qəlbimdə şirin diləyə:
Sənsən pak amalım, sənsən əməlim,
Bütün gözəllərdən sənsən gözəlim.

Qədəm basdım, düşdüm sevda yoluna,
Həsrət qaldım: qolum girə qoluna.
Atdın məni hicranının boluna,
Yetişəydi vüsalına tez əlim,
Bütün gözəllərdən sənsən gözəlim.

Sənlə danışıram, sənlə gülürəm,
Ağladırsan, göz yaşımı silirəm.
Səni ürəyimin "işi" bilirəm:
Sənsən öz əməlim, sənsən öz əlim,
Bütün gözəllərdən sənsən gözəlim.

Əyri qaşlarına mən yay demişəm,
Vurduğun yaranı, gəl say, - demişəm.
Çaşmışam,Günəşə mən Ay demişəm,
Qoy ağzım qurusun, lal olsun dilim,
Bütün gözəllərdən sənsən gözəlim.

Sən gəzən bağçada gəzə biləydim,
Ətirli güllərdən üzə biləydim,
Gülləri telinə düzə biləydim,
Olardı hüsnünə heyran yüz elim,
Bütün gözəllərdən sənsən gözəlim.

Gözündən göz kənar qoymaq olarmı?
Ləbintək bal dadan qaymaq olarmı?
O tuti dilindən doymaq olarmı?
Ay söhbəti şirin, sözü məzəlim,
Bütün gözəllərdən sənsən gözəlim.

Sənsiz dünya mənə, bil, haram olar,
Sənin gəlişinlə qəlb aram alar.
Sənlə ömrüm-günüm toy-bayram olar,
Sənsən bahar fəslim,sənsən yaz ilim,
Bütün gözəllərdən sənsən gözəlim.

Təkcə sənlə ürək şadlana bilər,
Sənsiz qəlb darılar, yadlana bilər.
Mirhəmid eşqinlə odlana bilər,
Sənsiz ömrüm xəzan, tökər xəzəlim,
Bütün gözəllərdən sənsən gözəlim!

*07 iyul 2005*

## KÜSƏNİM

Nədir, incimisən yenəmi məndən,
Qədəmbaşı ay inciyib, küsənim?
Bülbül heç doyarmı güldən,çəməndən,
Ətriylə güllərə iştah kəsənim,
Qədəmbaşı ay inciyib, küsənim.

Çəməndə, bağçada səni araram,
Reyhandan, Nərgizdən səni soraram.
Mən sənsiz həyatda nəyə yararam?
Sənsən vuran əlim, ağıl kəsənim,
Qədəmbaşı ay inciyib, küsənim.

Bülbül çəmənzarda tər gülə aşiq,
Qəlbinə ruh verən hər gülə aşiq.
Könlüm olmayıbdır bir gülə aşiq:
Sənsən mənim Lalə, Nərgiz, Süsənim,
Qədəmbaşı ay inciyib, küsənim.

Bülbülü yaxmaqçun gül edir nazı,
Bu nazdan bülbülün coşur avazı.
Gülüşün qəlbimə gətirir yazı,
Ruhumu oxşayan sənsən səs, ünüm,
Qədəmbaşı ay inciyib, küsənim.

Çıx çəmən seyrinə, qədəm qoy bağa:
Bülbüllər ötüşür dodaq-dodağa.
Yarın busəsidir yara sadağa,
Mən də möhtacınam səndə busənin,
Qədəmbaşı ay inciyib, küsənim.

Məşuqdan aşiqə naz gərək olsun,
Kim deyir: Çox deyil, az gərək olsun.
Sevənlər arası saz gərək olsun,
Hər sözə “mız qoyub, dodaq büzənim“,
Qədəmbaşı ay inciyib, küsənim.

İstərsən könlümü sən yaz edirsən,
Buludlu səmamı ayaz edirsən.
Mənlə danışdıqca min naz edirsən,
Nazla kiprik çalıb ay göz süzənim,
Qədəmbaşı ay inciyib, küsənim.

Könlüm səndən giley eşitməkdədir:
Çay dəmdə, elçilər gecikməkdədir.
Qarşıla, elçilər gözləməkdədir,
Elçisinə ay özü çay süzənim,
Qədəmbaşı ay inciyib, küsənim.

Ayırıb telləri tən, darayırsan,
Həsrət salıb telə dən, “qarıyırsan“.
Barı Mirhəmidi sən arayırsan,
Şerimdən telinə çələng düzənim,
Qədəmbaşı ay inciyib, küsənim?

*08 iyul 2005*

## SƏN GÜLƏNDƏ

Yurduma bahar gələr,
A gülüm, sən güləndə.
Çəmən gülər, gül gülər,
A gülüm, sən güləndə.

Dağdan günəş boylanar,
Lalə alışıb yanar,
Göldə sona nazlanar,
A gülüm, sən güləndə.

Əriyər dağlarda qar,
Artar çaylarda sular:
Ruhum çimər, durular,
A gülüm, sən güləndə.

Bülbüllər gələr dilə,
Nəğmə bəxş edər gülə,
Səsi yayılar elə,
A gülüm, sən güləndə.

Göz üstdən çatma qaşlar,
Can alar "canla-başla".
Könlümün "toyu başlar",
A gülüm, sən güləndə.

"Leyli-Məcnun" anılar,
Eşqdən tonqal qalanar:
Kərəm təzədən yanar,
A gülüm, sən güləndə.

Qəlb sevinclə bollaşar,
Bol kükrəyər, bol daşar,
Tel şanaya dolaşar,
A gülüm, sən güləndə.

Sevib-sevilmək hünər:
Ulduzlar göydən enər,
Zurna, nağara dinər,
A gülüm, sən güləndə.

Fələk ələyim ələr:
Ömrümə gur nur çilər:
Bəxtim, taleyim gülər,
A gülüm, sən güləndə.

Gözdən qəlbə od düşər,
Mirhəmid odda bişər,
Ləbinə elçi düşər,
A gülüm, sən güləndə.

*16 iyul 2005*

## TELLƏRİN

Yenə ətirlənib, nazla daranıb,
Yayılıb çiyninə qara tellərin.
İşvədən yoğrulub, nazdan yaranıb,
Vurubdur könlümə yara tellərin?

Olub səba yeli xəfif əsibdir,
Xəncər alıb bağrım başın kəsibdir.
Yaralı könlümdən neçin küsübdür,
Eyləyibdir para-para tellərin?.

Ulduz kimi daim yanıb sayrışır,
Aşiqindən gah inciyir, barışır.
Can almaqda gözlərinlə yarışır:
Şəvə gözlərintək qara tellərin.

Bir-birilə tez-tez salır davanı,
Viran qoyur aşiqə yurd-yuvanı.
Gündə yüz yol qurub hər cür divanı,
Çəkibdir könlümü dara tellərin.

Dərdlərimi darayıblar, hörüblər,
Sinəm üstə pünhan-pünhan səriblər.
İşlərini arxayınca görüblər:
Eyləyibdir istixara tellərin.

Can almaqda savaşı nə, cəngi nə?
Qəlbi belə viran sıxmaz məngənə.
Boyayıblar özlərinin rənginə:
Ediblər günümü qara tellərin.

Aşiqi yandırıb kül eylədikcə,
Bağlayıb zəncirə qul eylədikcə,
Zülmünü artırıb bol eylədikcə, -
Zülm öyrədir zülmkara tellərin.

Könlüm eşqin bəyan edib, bildirib,
Sanki qəlbə günəş doğub, güldürüb:
Aşiqinin canın alıb, öldürüb,
Yas tutub - boyanıb qara tellərin.

Darayıb, aşiqə qoşa dərd hörüb,
Hörüklər arasın dərdə sədd sərib.
Xoş dünyanı Mirhəmidə bəd verib,
Nurun salıb bəd məzara tellərin.

*19 noyabr 2005*

## NAZLI YARI GÖRÜM

Yubanma, açıl, sabahım,
Gedim, nazlı yarı görüm.
Göyə qalxır naləm, ahım,
Ölsün intizarı, görüm,
Gedim nazlı yarı görüm.

O, solmaz güldür çəməndə,
O güldü - güldü çəmən də.
Güldü - can qalmadı məndə,
Əldə ixtiyarı görüm,
Gedim nazlı yarı görüm.

Qaşı qələm, gözü almaz,
Görəndə ağıl, huş qalmaz.
Belə gözəl mələk olmaz,
Gecə yağmış qarı görüm,
Gedim nazlı yarı görüm.

Güntək nur saçır camalı,
Süzülür ləbinin balı.
Yanağında qoşa xalı,
Sinəsində narı görüm,
Gedim nazlı yarı görüm.

Dünya onsuz yalandır ki,
Könlüm oda qalandı ki,
Həsrət qəlbi taladı ki,
Talanmış bazarı görüm,
Gedim nazlı yarı görüm.

Məhəbbət bir kamal, hikmət,
Onu danmaq - haqq itirmək.
O, bir nemət, o, bir sərvət,
Ömrə dövlət, varı görüm,
Gedim nazlı yarı görüm.

Onsuz nağıl, əfsanəyəm,
Könlü talan, viranəyəm,
Ağlı itmiş, divanəyəm:
Qalmışam avarə, görürm,
Gedim nazlı yarı görüm.

Könlüm olub ona əsir:
Hər sözə, əmrə müntəzir.
Aylar ötür, il tələsir,
Ömür oldu yarı, görüm,
Gedim nazlı yarı görüm.

Min bir güldə nazım odur,
Bülbüləm, avazım odur,
Sinəmdəki sazım odur,
Qəlbə ahü-zarı görüm,
Gedim nazlı yarı görüm.

Mirhəmidi naza qoşub,
Ömrün çoxdan aza qoşub,
Ümidini yaza qoşub,
Açılan baharı görüm,
Gedim nazlı yarı görüm.

*19 dekabr 2005 (gecə)*

## NİYƏ GEN GƏZİRSƏN MƏNDƏN

Söylə mənə, ay gözəl qız,
Niyə gen gəzirsən məndən?
Cavan ömrüm keçir yalqız,
Gəl, qoy olsun ömrümüz şən,
Niyə gen gəzirsən məndən?

Səhər xəfif əsən mehsən,
Gül üstünə düşən şehsən.
Məhəbbət dolu qədəhsən:
İçirəm, doymuram səndən,
Niyə gen gəzirsən məndən?

Gəl məndən gen gəzmə böylə,
Sənsiz günüm keçir neylə.
Sən şah - mən qul, kərəm eylə:
Qoy, əl məndən, ətək səndən,
Niyə gen gəzirsən məndən?

Sənə gülşən, çəmən olum,
Ən müqəddəs kəlmən olum.
Sənə can yeri mən olum,
Qoy can olum keçim səndən,
Niyə gen gəzirsən məndən?

Qəm-kədəri silək qoşa,
Bir sevinək, gülək qoşa,
Öləndə də ölək qoşa,
Eşq ətri gəlsin kəfəndən,
Niyə gen gəzirsən məndən?

Mirhəmidəm, ömrüm sənsən,
Hər fərmanım, əmrim sənsən,
Bir maqnitəm, dəmrim sənsən,
Maqnit-dəmir gəzməz gendən,
Niyə gen gəzirsən məndən?

*06 iyun 2006 (06.06.06.)*

## SƏN - MƏN

*Gər desəm vardır cahanda, sənsən, ey könlüm alan,*
*Dil sənindir, can sənindir, mən mənim bəs nəmdürür?*[1]

**(İ.Nəsimi)**

Səni məndən kim ayırı[2]–
Zahirimdə içimdəsən?!
Seçilmirsən məndən ayrı:
Mənlə bir boy-biçimdəsən.

Bir Tanrıdır şəriksiz zat,
Öz ruhunu ruhuma qat.
Sən ki mənsən[3] sənliyi at:
Mənə keçim-keçimdəsən.

Səni sevdim, mətin oldum,
Asan idim, çətin oldum:
Bir zahirü-batin oldum,
Görüm, mənsiz keçin di sən!

Nişangaham sənə sarı,
Vur sinəmə yara, sarı.
Gedirəmsə hara sarı,
Karvanımda, köçümdəsən.

---

[1] *Yəni: Ey könlüm alan gözəl, cahanda var olan desəm, bu sənsən: könül sənindir, can sənindir, beləsə, mən mənim bəs nəyimdir?*
[2] *"Ayırı" – "ayırar" mənasında.*
[3] *Mən – ərəbcə: 1) qadağa, yasaq; 2) qabağını alma, qabağını saxlama; 3) mane olma.*

Kiprik adlı oxunda mən,
“Ax”ın da mən, “ox”un da mən,
Oyağında, yuxunda mən:
Gör nə gözəl seçimdəsən!

Qəlb sən adlı odda bişib:
Aləmə eşq ətri düşüb.
Mirhəmid tamam dəyişib:
Çölüm də sən, içim də sən!

*07 iyun 2010*

## XƏYALIMLA RASTLAŞSAN və ya İKİ KİTABA XÜLASƏ

*Hər bir sənət adamının içində öz ilham pərisi var.*
**(M.Qənizadə)**

Gör nə gözəl taleylə
Doğulmusan dünyaya:
Yaşasan yüz yaşda da
Bənzərsən Günə, Aya!

Sənə olan eşqimə,
Doğrusu, mat qalmışam:
Bir neçə il içində
Əsl şair olmuşam.

Boylanır bu günlərdən
Keçmişə, – sənə sarı,–
İki kitab hədiyyə:
İçi eşq kəlamları.

Ən dərin hisslərimlə
Qarşında diz çökürəm,
“ Sənin kitablarınla ”
Səni təbrik edirəm!

Səni məhəbbətimlə
Buraxıram baş-başa.
Bu mən: Mirhəmid, bu sən:
Arzularımla yaşa!

*08 noyabr 2013*

## GÖZLƏRİMİ HƏSRƏT QOYMA GÖZÜNƏ

Nə müddətdir məndən ayrı düşmüsən,
Gözlərimi həsrət qoyma gözünə.
"Zülm etməkdə" yetişmisən, bişmisən,
Mərhəmət et, baxma əğyar sözünə,
Gözlərimi həsrət qoyma gözünə.

Dəli könlüm gözlərinə vuruldu:
Qapısında sail oldu, qul oldu,
Atəşindən alovlandı, kül oldu -
Qızınırsan yanar qəlbin közünə,
Gözlərimi həsrət qoyma gözünə.

Sən gedəni itirmişəm özümü:
Dəyişmişəm söhbətimi, sözümü.
Yığ yollardan bu nigaran gözümü -
Qoy baş qoysun sənin ayaq izinə,
Gözlərimi həsrət qoyma gözünə.

Qara gözlər neçə qulun ağası,
Bir baxışla yandırası, yaxası.
Mənim eşqim ilk məhəbbət çağası:
Bələmisən yanar hicran bezinə,
Gözlərimi həsrət qoyma gözünə.

Ayrı düşdük, ruhum, canım saraldı,
Gözlərimin nuru getdi, qaraldı.
Yar almayan Mirhəmidi yer aldı,
Can üstəyəm, al başımı dizinə,
Gözlərimi həsrət qoyma gözünə.

*21 noyabr 2004*

# ADLI GÖZƏLLƏR



## VÜSALƏ

Darayıb, üstündən taxmısan şanə,
Vermisən yaraşıq telə, Vüsalə.
Səni sevən aşiq olar divanə,
Üz tutar səhraya, çölə, Vüsalə.

Qaşların əyrisi - ayın hilalı,
Bol edir möhnəti, dərdi, məlalı.
Oğrun gözlərini süzmə ədalı,
Döndərmə bağrımı külə, Vüsalə.

Sən Aysan, Ulduzsan, işıq saçırsan?
Gəlirəm zikrinə, məndən qaçırsan.
Gizli xəzinəsən, sirli açarsan,
Canım qurban fitnə-felə, Vüsalə.

O şirin sözlərin canımı alar,
Ruhumu min dondan min dona salar.
Sənsiz aşiq bircə günə qocalar,
Ömrü qurban verər yelə, Vüsalə.

Camalın şövqündən Günəş utanır,
Neçə səyyarələr adını danır.
Yanağın rəngindən lalələr yanır,
Verirsən ətrini gülə, Vüsalə.

Reyhansan, bitmisən bağda, çəməndə,
Mislin yox nə Əcəm, nə də Yəməndə.
Neçə aşiqləri salıb kəməndə,
Bağladın pərişan telə, Vüsalə.

Bir bağsan, Mirhəmid gəzmək istəyir,
Sənlə asimanda süzmək istəyir,
Sənin sularında üzmək istəyir,
Bənzərsən Eşq adlı gölə, Vüsalə,
Qıyma, qurban gedəm selə, Vüsalə.

*28 aprel 2005*

## SÜSƏN XANIM

Nə gözəl gəlmisən sən bu dünyaya,
Gözəllər gözəli, ay Süsən xanım!
Camalın nur saçır Günəşə, Aya,
Bahar, Süsən xanım, yay, Süsən xanım!

Yerişin kəklikdən düşmür aralı,
Duruşun məst edir ürkək maralı.
Səni sevən günü-gündən saralı,
Çoxalar dərdləri, ay Süsən xanım!

Ağlı başdan alır şirin sözlərin,
Ruhu candan alır qara gözlərin.
Nazlı ceyranısan bizim düzlərin,
Ellərin gözəli, ay Süsən xanım!

O əyri qaşların kamandır axı,
Tərk etmə aşiqi amandır axı,
Ayrılıq ölümdən yamandır axı,
Xəzanam, xəzəlim say, Süsən xanım!

Könlüm ilk baharı gözündə tapıb,
Güllü çəmənzarı düzündə tapıb,
Düz əhdi, ilqarı sözündə tapıb,
Eşqimin əzəli, ay Süsən xanım!

Ətrini almısan bağda gülün də,
Bülbülün avazı şəkər dilində.
Mənim mahalımda, sənin elində,
Tapılmaz hüsnünə tay, Süsən xanım!

Gözəl əməlin də, gözəl işin də,
Ruhuma can verən hər gəlişin də.
Dərdimin məlhəmi şux gülüşündə,
Axır dağ çeşməsi, çay, Süsən xanım!

İstədin, aşiqi güldürdün, Vallah,
Ağladıb, göz yaşın sildirdin, Vallah,
Getdin, Mirhəmidi öldürdün, Vallah,
Qayıt, məzarına qoy, Süsən xanım,
Acı rüzgarından doy, Süsən xanım!

*02 may 2005*

## SƏBİNƏ

Allah yaradıbdır səni,
Sanki bir mələk, Səbinə.
Məftun edirsən görəni,
Ay gözəl-göyçək Səbinə.

Sevdanın əzəl yaşısan,
Sən gözəllərin başısan,
Can alan qələm qaşısan,
Gözə sürmə çək, Səbinə.

Ömrün çoxu, azı sənsən,
Fəslin bahar, yazı sənsən,
Eşqin sözü, sazı sənsən,
Nazından əl çək, Səbinə.

Tərifin elə yayılıb,
Dodağa, dilə yayılıb.
Tellərin belə yayılıb,
Top qara birçək Səbinə.

Söhbətin gözlə, qaşladır,
Ağlatdın - gözüm yaşlıdır.
Üzün güldü - yaz başladı:
Açdı gül-çiçək, Səbinə.

Zülfün qara boyamısan,
Nur saçırsan Ayamı sən?
Şirin xəyal, röyamısan,
Yoxsa ki, gerçək, Səbinə?

Aldın Mirhəmiddən ağlı:
Qaldı ağlar, sinə dağlı.
Ümidi bir sənə bağlı,
Xoş arzu-dilək Səbinə.

*05 may 2005*

## GÖZƏLLƏR

Bəzənib ceyrantək dəstəbədəstə,
Seyrə çıxıb seyrangahı gözəllər.
Pəhləvan cüssələr düşüblər xəstə,
Göyə qalxır nalə, ahı, gözəllər.

Tül bədənə şəst ilə tül geyiblər,
Gözəllikdə öyünüblər, öyüblər,
Bir baxışla aşiqə: öl! deyiblər,
Qazanıblar ilk “günahı“ gözəllər.

Narındırlar: ələniblər ələkdən,
Uzaqdırlar hər hiylədən, kələkdən.
Seçilmirlər Huri, Qılman, Mələkdən,
Pərilərin şahənşahı gözəllər.

Hörüklərin Müşki-Ənbər qoxulu,
Gözlər xumar, sanki yorğun, yuxulu.
Dodaqları dadır qəndi, noğulu,
Bədən büllur, boy sürahı gözəllər.

Dürdürlər, cəvahir, ləl, gövhərdirlər,
Ömrümə nur saçan sübh, səhərdirlər.
Sevib-sevilməkdə təzə-tərdirlər:
Mənlə başlar bismillahı gözəllər.

Könlüm tək zülfləri pərişan gəzir,
Gözləri atəşdən “paylayır nəzir“.
Edib aşiqini əmrə müntəzir,
Gündə tutur bir siyahı gözəllər.

Xoşbəxt ruzigarın gərdişləridir,
Dodaqları püstə, zər dişləridir.
Can alıb, can vermək vərdişləridir,
Xatırladır Məsih ahı gözəllər.

Mirhəmid sizləri qəlbə şah bilir,
Can alan gözləri sitəmgah bilir,
Sizə səcdə edir: səcdəgah bilir,
Ürəyinin qibləgahı gözəllər.

*19 iyun 2005*

## BƏSTƏBOY

*(İlham pərim Bəstəboya ithaf edirəm)*

Gözəllikdə gözəllərdən seçilib,
Çəməndə ətirli güldü Bəstəboy.
Gözəllik qəddinə sanki biçilib:
Tül bədəndə nazlı tüldü Bəstəboy.

Dal gərdəndə hörüklərin qulacdır,
Həlqələri dərdlərimə əlacdır,
Sal boynuma, o bir nazlı dolacdır,
Könlüm tək pərişan teldi, Bəstəboy.

Çəkib qaşa vəsmə, gözə sürməni,
Nazla örtüb zülf üstündən tirməni.
Olub ətirli gül deyir: Dər məni!
Ağlım alan fitnə-feldi Bəstəboy.

Görməmişdim, könlüm onsuz şux idi,
El içində nazlı qızlar çox idi.
Sevgisiz xoş günüm, ayım yox idi,
Ömrümdə təzə gün, ildi Bəstəboy.

Boyu bəstə, gümüş kəmər, bel incə,
Yanaqlar al, buxaq billur, ləb qönçə.
Halım getdi, gözlərini süzüncə,
Kiprik çaldı, canım aldı Bəstəboy.

Səhər-səhər gəzər bağda, bağçada,
Üzündən nur alar bağ da, bağça da.
Sirri açılmamış, bağlı boğçadı:
Firuzə, cəvahir, ləldi Bəstəboy.

Yanağından Ayla Günəş nur saçır,
Dodağından arzularım dil açır.
Eşqin asimandır - xəyalım uçur:
Kipriklərin qanad çaldı, Bəstəboy.

Şəfəq zümzüməsi gülün, jalənin,
Ləbləri süfrəsi mey, piyalənin,
Yanaqları qızartısı lalənin,
Bağrının başında xaldı Bəstəboy.

Məhəbbət nə ağıl, nə də başladır,
Aşiqin söhbəti gözlə, qaşladır.
Mirhəmidlə “al-ver“inə başladı:
Təkcə ürəyini aldı Bəstəboy:
Sevgidən bir saray saldı Bəstəboy,
Qəlbində əbədi qaldı Bəstəboy!

*02 iyul 2005*

## GÜNAYIM

Sənsən mənim həyatımda
Şirin ötən günüm, ayım.
Sənsiz keçən günlərimi,
Necə ömrə günüm sayım,
Ay ömrə günüm Günayım?!

Gəldin - məndə il dəyişdi,
Bağ-çəməndə gül dəyişdi.
Güldün - dodaq, dil dəyişdi,
Nəğmə oldu ünüm, hayım,
Din, sənlə dinim, Günayım!

Sən ətirli gülsən mənə,
Şirin- şəkər dilsən mənə,
Yanar közlü külsən mənə,
Necə səndən sönüm, soyum,
Yan, külə dönüm, Günayım!

Dünya sənsiz çən, dümandır,
Tərk etmə məni, amandır:
Dumanda qalmaq yamandır,
Olmasın çən, duman payım,
Gəl, getsin çənim, Günayım!

Canı oda qalayırsan,
Can yandıqca, qınayırsan.
Hamını sən sınayırsan,
Səni də, qoy, mən sınayım,
Yandı bədənim, Günayım!

Axşam oldu - göz süzüldü,
Gözdən qəlbə köz düzüldü.
Dözmədi ürək, üzüldü:
Döndü oldu qəm sarayım,
Sənli bir aləm, Günayım!

Üzün anır Günü, Ayı,
Gəl itirmə haqqı-sayı:
Sənsən Mirhəmidin tayı,
Taledən xoş qismət payım,
Ay ömrüm-günüm, Günayım!

*11 dekabr 2005*

## GÜLLƏRİN BƏSTƏBOYU

Hər baharda təbiət təzə, güllü don geyir,
Sənsən o naxışların açan dilləri, lalə.
Sanki gəlin çıxacaq: mağar qurub, toy edir,
Bu duvaqlı gözəlin həna əlləri lalə.

Dağ döşü yaraşıqda rənginə möhtac olur,
Səni seyr edən insan gözəlliyə ac olur.
Bəlkə sənə baxmaqdan gözəllər qıyqac olur:
Axıdır gözlərindən aşiq selləri, lalə.

Dağda, tarla, çəməndə seçilirsən donunla,
Al rəngə boyayırsan gülləri öz “qanınla“,
Görəni mat qoyursan bağrındakı xalınla,
Sənin sözün-söhbətin gəzir elləri, lalə.

Çölə, çəmənə, düzə, yamaclara çıxırsan,
Qarışıb gül ətrinə ürəklərə axırsan,
Sənə heyran qəlbləri yandırırsan-yaxırsan,
Həsrət adlı ocaqda qalır külləri, lalə,

Yanağının rəngini gözəllər səndən alır,
Toxuna bilməyənlər ətrini gendən alır.
İşvə-nazla süzərək ruhu bədəndən alır
Qaşın-gözün bol edir fitnə-felləri, lalə.

Güllər içrə al rəngin xatırlar nişan, toyu,
Mirhəmid sənin adın əzizlər illər boyu.
Onun yarı Bəstəboy, sən güllər bəstəboyu:
Oxşayır səndə xalı, onda telləri, lalə.

*30 iyul 2007*

# MAHNILAR, QƏZƏLLƏR



## EŞQİMİZƏ AĞLADIM

*(Mahnı)*

*(”Şur” muğamı üstündə)*

*Musiqisi:* ***Loğman Yusubundur.***

-1-

Gözlərimi nəm tutub,
Ağlayıram mən hey, yar. } *2 dəfə*
Məni hicran oduna,
Niyə atdın sən, ey yar. } *2 dəfə*

*Nəqərat:*

Dön gəl, mənə yarım ol,
Ağlamasın gözlərim. } *2 dəfə*
Sən gəl vəfadarım ol,
Qatlanmasın dizlərim. } *2 dəfə*

-2-

İnadından əl götür,
Gəl məni düşün bir az. } *2 dəfə*
Sevən sevdiyi yardan
Ölər də, ayrı qalmaz. } *2 dəfə*

*Nəqərat:*

-3-

Sənə könül bağladım:
Gah coşdum, gah çağladım. } *2 dəfə*
Atdın sən məni getdin:
Eşqimizə ağladım. } *2 dəfə*

*Nəqərat:*

*10 aprel 2010*

## BALA NAZƏNİN[1]

*(xalq mahnısı)*
*(”Mahur” üstündə)*

-1-

Ağlımı başımdan ay alan gözəl,
Məni eşq oduna ay salan gözəl. } *2 dəfə*

*Nəqərat:*
Yeri-yeri cansan, Bala Nazənin,
Canlar alansan, Bala Nazənin. } *2 dəfə*

-2-

Gözəllər içində sənə tay olmaz,
Camalın nurutək, inan, Ay olmaz. } *2 dəfə*

*Nəqərat:*
Gecələr Aysan, Bala Nazənin,
Qaşları yaysan, Bala Nazənin. } *2 dəfə*

-3-

O qara gözlərin görəndən bəri,
Könlümə həmdəmsən, dilim əzbəri. } *2 dəfə*

*Nəqərat:*
Yeri-yeri cansan, Bala Nazənin,
Canlar alansan, Bala Nazənin.
Gecələr Aysan, Bala Nazənin,
Qaşları yaysan, Bala Nazənin. } *2 dəfə*

*25 noyabr 2013*

---

[1] *Bu mahnını uşaq vaxtı radioda mərhum xanəndə, xalq artisti Baba Mahmudoğlunun ifasında 1-2 dəfə dinləmişəm və yaddaşımda yalnız nəqərat hissələri qalıb. Təəssüf ki, bu mahnı radio fondunda da qalmayıb. Buna görə də mahnıya yeni sözlər yazmalı oldum.*
*(Müəllif.)*

## AY ALA GÖZ YARIM[1]

*(xalq mahnısı)*
*(”Mahur” üstündə)*

-1-

Gəl görüm, gəl görüm, kimin yarısan,
Hansı bəxtəvərin vəfadarısan. } *2 dəfə*

*Nəqərat:*
Ay ala göz yarım,
Əhdim, ilqarım. } *2 dəfə*

-2-

Keçmək olmaz bu göz, bu qələm qaşdan,
Görənin ağlını alırsan başdan. } *2 dəfə*

*Nəqərat:*

-3-

Bədənin billurdur, gərdənin mina,
Səni sevən aşiq qıyarmı cana?! } *2 dəfə*

*Nəqərat:*

-4-

Kölgədə bəslənmiş quzey qarısan,
Sən mənim könlümün nazlı yarısan. } *2 dəfə*

*Nəqərat:*
Ay ala göz yarım,
Əhdim, ilqarım. } *4 dəfə*

*02 dekabr 2013*

---

[1] *Yalnız 1-ci bənd və nəqərat unudulmuş bu mahnının sözləridir.*

*Qeyd: Mahnı mərhum xanəndə, xalq artisti Baba Mahmudoğlunun repertuarındandır.*

## ANA
*(qəzəl)*

Ey yaranış səbəbim, ey xilqəti-canım, ana,
Ey axan damarda qanım, nəbzi-dövranım, ana.

Bənzərəm sənsiz qalanda xəstə, solğun körpəyə,
Hər görəndə çöhrəni taparam dərmanım, ana.

Sanki dönər zülmətə bu kainat, sən olmasan,
Sən ki varsan, nurludur Yerim, asimanım, ana.

Gətirmisən bu cahana məni, duymaqçun səni,
Səni duyduqca olur hər müşkül asanım, ana.

Ayağın altda sənin Tanrı yaratmış cənnəti,
Bəni-Adəm nəsliyəm, sən cənnət-məkanım, ana.

Gül-çiçəklər cəm ola, verməz bir telin ətrini,
Nuri-xislət məskənim, baği-gülüstanım, ana.

Sənin eşqində tapıb Mirhəmid həyat zatını,
Ey vücudi-paki-eşqim, təxtə sultanım, ana.

*01 iyul 2009*

## NƏVƏMİN "MƏSLƏHƏTİ"

*(qəzəl)*

*(Nəvəm Məryəmin dilindən)*

*Bütün nəvələrimə ithaf edirəm.*

*Ağıllı olmaq da bir şey deyil. Mühüm odur ki, ağlı lazım olan zamanında, yerində istifadə edə biləsən.*

**(Müdriklərdən biri)**

- Nə var ağıllılıqda, ol biztək dəli, baba,
Dəlilikdə hər nə var, inan, var, bəli, baba.

Nə tutmusan ağıldan, ağıl kimə nə verib,
Dəlilik bizdən tutub sanki bir zəli, baba.

Nə istəsək deyirik, kimin bizlə nə işi,
Bizlərə baş qoşana deyirik dəli, baba.

Kimsə qalxsın, ucalsın, bizim nə vecimizə,
Ya da yerdə inləsin Əli ya Vəli, baba.

"Mənalı yaşamağın cövhəri ağıldadır!"–
Əcəb sözlər deyirsən, sözü məzəli baba.

Eh, qəribə söz dedin, nə lazım elm, savad,
Bu dünyaya gələnlər bir gün öləli, baba.

Zəhmətsiz yeyib-içək, qoy dünya bizim olsun,
Zəhmət çəkənin axır əsəcək əli, baba.

... Yaxşı ki, tez oyandım yuxudan, oldum rahat,
Ağır yuxudan sonra gərək dincəli baba.

Mirhəmidin nəvəsi düşünər babasıtək:
Çünki eldə tanınıb: düz qəlb, dil, göz, əli baba.

*11 noyabr 2011 (11.11.11)*

## GƏRƏK

*Vətəni sevmək imandandır.*
**Həzrəti Mühəmməd (s.ə.s)**

Aşiq qurban eləsin canını canana gərək,
O da aşiq oduna odlanaraq yana gərək.

Qoxlayıb duymaq üçün ətrini çəməndə gülün,
Bülbül nəğmə oxuya, səs sala hər yana gərək.

"Vətənimçün, öz elimçün keçərəm canımdan!" -
Deməklə bitməyir iş, sən qıyasan cana gərək.

Sevmək üçün hər qarış torpağın bu diyarın,
Uça ruhun, gedə qonaq Şəki, Şirvana gərək.

Qarabağdır Vətənimin behişti-əlası:
Salamı orda verək huriyə, qılmana gərək.

Köçürməkçün qəlbinə sən bu ulu torpağı,
Murovdan boylanasan Gəncə, Naxçıvana gərək.

Ola bilməz tayı heç yerdə Azərbaycanın,
Mirhəmidtək bilə hər övlad onu Ana gərək.

*23 avqust 2009*

# ƏLLƏRİM DƏRGAHA AÇILI QALIB



## MİLLƏTƏ TƏPƏR VER, ALLAH!

*Üç şey güclü edir hər bir milləti:*
*Qeyrəti, qüdrəti, mədəniyyəti.*
**Nizami Gəncəvi**

Əlim dərgahına açılı qalıb,
Millətə bir azca təpər ver, Allah!
Qaranlıq gecələr səbrimi alıb,
Nurlu gecələr ver, səhər ver, Allah,
Millətə bir azca təpər ver, Allah!

Bu millət tarixlə qocalan olub,
Yağı düşmənlərdən öc alan olub,
Tarixin özündən bac alan olub,
Tarla, bağ-bağatdan bəhər ver, Allah,
Millətə bir azca təpər ver, Allah!

Neçə ildir torpaq düşmən tapdağı,
Düşmür anaların dilindən ağı:
Çəkilib sinəyə oğul, qız dağı,
Daha bu dağlara çəpər ver, Allah,
Millətə bir azca təpər ver, Allah!

Nə qədər övladı düşmənə əsir,
Neçəsi çadırda tapmayır həsir.
Qılınclar qəzəbdən qınını kəsir,
Qanadlı at göndər, yəhər ver, Allah,
Millətə bir azca təpər ver, Allah!

Millətin al-veri başından aşır,
Əsir torpaq gündən-günə yadlaşır.
Gözləməkdən ağıl itir, baş çaşır,
Qaynar qan,düşünən bir sər  ver, Allah,
Millətə bir azca təpər ver, Allah!

Torpaq getsə - yaşınmağa haqqı yox,
Millət adın daşımağa haqqı yox,
Bu millətin yaşamağa haqqı yox,
Özünü asmağa kəmər ver, Allah,
Millətə bir azca təpər ver, Allah!

İtkinlərin anaları yatmayır,
Yol gözləyən sonaları yatmayır,
Yiyəsiz evi, binaları yatmayır,
Qazi, şəhidlikdən şapər ver, Allah,
Millətə bir azca təpər ver, Allah!

Təntimiş cəsədə sər nə vermisən?
Köhnəlmiş şöhrətə tər ne vermisən?
Vallah, bu millətə hər nə vermisən,
Düşmən üzərində zəfər ver, Allah,
Millətə bir azca təpər ver, Allah!

Vətən Qarabağsız - bülbülsüz güldür,
Torpağı azad et, milləti güldür,
Ya da Mirhəmidi biryolluq öldür:
Ruhunu vətənə sipər ver, Allah,
Millətə bir azca təpər ver, Allah!

*18 iyun 2005*

## SƏNİ SƏNDƏN İSTƏMƏRƏM!

Yenə nə özünü çəkib durmusan:
Sən kimsən,mən səni səndən istəyim?
Günahkarsan, boynubükük burmusan,
Necə gəlsin sənə mənim dəstəyim?
Sən kimsən,mən səni səndən istəyim?

Sənlə gözəllikdə yarışmaq çətin,
Elə küsürsən ki, barışmaq çətin,
Sənin işlərinə qarışmaq çətin,
Ürəyimə necə yardan küs deyim,
Sən kimsən, mən səni səndən istəyim?

Gözəllik dünyanı etsə də xilas,
Eşqə, məhəbbətə o deyildir xas.
Göz tutub, ürəyə yatmaqdır əsas,
Gözəllik deyildir bər-bəzək, geyim,
Sən kimsən,mən səni səndən istəyim?

Səni də, məni də yaratmış Tanrı,
Yaranış Tanrıda tapmış qərarı.
Odur sevənlərin qəlb ixtiyarı,
Odur ümid yerim, Odur diləyim,
Sən kimsən,mən səni səndən istəyim?

İstəsəm mən səni, əyər ki, səndən,
Bol edib nazını ötərsən gendən,
Dərd verib saçımı edərsən dən-dən,
Sonra ünvanına niyə pis deyim?
Sən kimsən,mən səni səndən istəyim?

Göyləri, yerləri xəlq etmiş Allah,
“Ol!“ sözündən xilqət tapmış təcəlla,
Başlanmış hər işə dildə bismillah:
Budur ən müqəddəs, ən ülvi deyim,
Sən kimsən,mən səni səndən istəyim?

Bizə əmr olunub beş vaxtı namaz,
Hikmətin dərk etməz naşı, anlamaz.
Namazsız heç kəsə nicat tapılmaz,
Rəbbə səcdə edim, qəddimi əyim,
Sən kimsən,mən səni səndən istəyim?

Ramazan ayında açılır əflak,
Günahlar yuyulur, insan olur pak.
İbadət, səxavət - ən böyük əmlak,
Otuz gün niyyətim - sənsən istəyim,
Sən kimsən,mən səni səndən istəyim?

Endi Peyğəmbərə Qurani-Kərim:
Sözlər Allahındır, yazı bəşərin.
Odur ümid yeri müttəqilərin,
Neçə surəsini əzbərdən deyim,
Sən kimsən,mən səni səndən istəyim?

İslamı gətirən Ulu Peyğəmbər,
Qəlblərə çıraqdır, adı dil-əzbər.
Bütün diləkləri edib müxtəsər,
Düşüb ayağına ondan istəyim,
Sən kimsən,mən səni səndən istəyim?

Haqq yola nur salır on iki İmam:
On iki Günəşdir - 12:00 tamam,
Hər biri bəxş etsə ömrümə ənam,
Xoşbəxt bir taleyə dönər taleyim,
Sən kimsən,mən səni səndən istəyim?

Məhərrəmdə bir matəmə sarıblar:
Yetmiş iki şühədanı qırıblar,
Ələmdarın qollarını salıblar,
İmam Hüseyn,Həzrət Abbas - göynəyim,
Sən kimsən,mən səni səndən istəyim?

Ziyarətim Məşhəd, Kərbəla, Kəbə,
Pak ziyarət sevməz qürur, dəbdəbə.
Savab əməllərdən qurum sərdabə,
Sağlam ruh, sağlam can,bədən istəyim,
Sən kimsən, mən səni səndən istəyim?

Taleyimə nur doğaydı Fələkdən:
Kam alaydım hər arzudan, diləkdən.
Mən keçmərəm sənin kimi mələkdən,
Mirhəmidəm,dərdimi Cəddimə deyim,
Sən kimsən, mən səni səndən istəyim?
Yıxılıb Cəddimə, Cəddən istəyim,
Sən  mənsən, mən səni məndən istəyim!

*03 iyul 2005*

# YA ATAMI ÖLDÜRƏN ALLAH!

*(Atamın əziz xatirəsinə ithaf edirəm)*

*“Dirildən də, öldürən də Odur. Məhz Onun hüzuruna qaytarılacaqsınız!“*

**Qurani-Kərim,**
**“Yunis”“ surəsi (10-cu surə), 56-cı ayə.**

Dünya başdan başa nisgil,dərd,ələm,
Rəhm et, ya atamı öldürən Allah!
Göydən yağış kimi hey ələnir qəm,
Kimdir qəmdən islanmaqdan qurtula?
Rəhm et, ya atamı öldürən Allah!

Yaranışdan haqla nahaq vuruşur,
İmansızlar şeytan ilə yarışır.
Məzhəb itir, küfr imana qarışır,
Haqq-ədalət haqsıza qalib ola,
Rəhm et, ya atamı öldürən Allah!

Xəlq etdin İnsanı sən öz nurundan,
Dedin: Tanı məni, mənəm Yaradan,
Sığın mənə,qurtulmaqçün şeytandan!
Satdıq behişti bir buğdaya, Vallah,
Rəhm et, ya atamı öldürən Allah!

Yaratdın tolrpaqdan, gəldik dünyaya,
Kimi səcdə etdi Günəşə, Aya,
Kimisi heyvana, kimi taxtaya.
Aldandıq, şeytanla biz çıxdıq yola,
Rəhm et, ya atamı öldürən Allah!

Neçəsin bizlərə Peyğəmbər etdin,
Haqqa dəvətləri hey hədər getdi,
Eylədik Vətəndən didərgin, itkin,
Amma haqq itmədi, tapdı təcəlla,
Rəhm et, ya atamı öldürən Allah!

Bir Nəbiylə Sən birbaşa danışdın,
Bir Nəbi... ana bətnində danışdı:
- Allah təkdir, özgə məbud yanlışdır!
Bizsə səcdə etdik Sənə Oğulla,
Rəhm et, ya atamı öldürən Allah!

Gəldi bəla - dərki iman eylədik,
Getdi bəla - tərki iman eylədik,
Şeytan ilə şərki iman eylədik,
Gəldi bəşər nuru ol Rəsulullah,
Rəhm et, ya atamı öldürən Allah!

Onun sinəsinə yazıldı Quran,
Quranla bərqərar oldu din, iman.
İslam diniylə müslüm oldu insan,
Əzəl-axır din İslamdır, inşaallah,
Rəhm et, ya atamı öldürən Allah!

Dinə qədər dinsizliklə qocaldıq,
Dinsizlikdə şeytandan da bac aldıq:
Peyğəmbərin mübarək dişin saldıq,
Dedik: Haqq bizlədir - bizik Sədulla,
Rəhm et, ya atamı öldürən Allah!

Əl çəkdik Tanrıdan - biz bəşər tutduq,
Məşhər qurulacaq bilsək də, yatdıq.
Peyğəmbərin zövcəsinə şər atdıq,
Nə bir tövbə dedik, nə əztəğfurulla,
Rəhm et, ya atamı öldürən Allah!

Olmadıq mehriban - döndük vəhşiyə,
Böləndük: biz olduq sünnü, ya şiə
Atıb müsəlmanı zülmət guşəyə,
Hər məzhəb söylədi: Mənəm Nurulla, -
Rəhm et, ya atamı öldürən Allah!

Kəsdik Kərbəlada Hüseynin başın, -
Tökərmi qanını qardaş qardaşın? -
Hüseynə axıtdı yer-göy göz yaşın,
Söylədik: Günahkar - dəşti Kərbəla,
Rəhm et, ya atamı öldürən Allah!

On bir imamı aradan götürdük:
Ya xəncərlə, ya zəhərlə öldürdük.
Düşmənləri özümüzə güldürdük:
Əhli-savabıq - bizə yaddır günah!
Rəhm et, ya atamı öldürən Allah!

İndi çətin dövran, ağır zamandır,
“İmanlı“ var, qəlbində biimandır.
İmana gedən yol tozdur, dumandır,
Sənsən nicat verən, Sən - Fərəculla,
Rəhm et, ya atamı öldürən Allah!

Ellə bir ağlayıb, birgə gülmərik,
Yetim nə yeyir, nə içir, bilmərik,
Tikəmizi kasıb ilə bölmərik:
Süfrəmizə qoymarıq şərik ola,
Rəhm et, ya atamı öldürən Allah!

Varlı var, bağında kəklik, turacı,
Ölkənin hədsizdir yoxsulu, acı.
Acından ölənin qonşusu - Hacı,
Həcc sarı öndərik, əlhəmdülilla,
Rəhm et, ya atamı öldürən Allah!

Bu duanı mən atamdan anladım,
Bu duadır indi qolum, qanadım.
Mirhəmidəm, bir gün deyər övladım,
Məzarım üstündə dalıb xəyala:
Rəhm et, ya atamı öldürən Allah!

*12 iyul 2005*

# ON BİR AYIN SULTANI

*(Müqəddəs Ramazan ayına ithaf edirəm)*

*“Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, (onun vasitəsilə) pis əməllərdən çəkinəsiniz!”*

**Qurani-Məcid, Əl-Bəqərə surəsi, 183-cü ayə**

Mömin ürəklərə günəş boylandı:
Gəldi on bir aya sultan Ramazan,
Niyyətlər düz oldu - günahlar yandı,
Haqq yola düzəldi yolunu azan,
Gəldi on bir aya sultan Ramazan.

Mömin Yaradanın qonağı olur,
Pak əməl üzünün çırağı olur,
Savabı çiynində Qaf dağı olur -
Günah əhli olar başqa cür yozan,
Gəldi on bir aya sultan Ramazan.

Dəyişdi nəfəsi aran, dağın da,
Rəngi parlaqlaşdı qara, ağın da.
İbadət əhlidir öz yatağında
Oruc şəxs: durmasa gen müsəlmandan,
Gəldi on bir aya sultan Ramazan.

Tanrı istəyindən güc aldı bu ay,
Həvayi-nəfsdən bac aldı bu ay,
Paklayan adıyla ucaldı bu ay,
Özünə xas etdi onu Yaradan,
Gəldi on bir aya sultan Ramazan.

Əsil qiymətini vermək çətindir,
Şəninə zikrlər, dualar dindi.
Tövrat, İncil, Zəbur səmadan endi,
Rəsulun qəlbinə oxundu Quran,
Gəldi on bir aya sultan Ramazan.

Ağız bağlıdırsa yeyib-içməyə,
İnsan gərək qeybət, böhtan deməyə,
Günahlardan dinclik verə ürəyə,
Etməyə əməldə bir xəta, nöqsan,
Gəldi on bir aya sultan Ramazan.

Elm oxuya, diqqət edə təbirə,
Tövbə edə, xətadan üz çevirə.
Qəlbi meydan ola dözümə, səbrə:
Onsuz çətin olar kamil müsəlman,
Gəldi on bir aya sultan Ramazan.

Yardım edən niyə qoysun minnəti?
Ləyaqətlə icra etsin sünnəti,
Bağlamasın qapıların Cənnətin,
Yoxsa, qapıların açar Qır qazan,
Gəldi on bir aya sultan Ramazan.

Bu ayda yerlə göy vəcdə gəlirlər,
Bu ayda şeytanlar zəncirlənirlər,
Bu ayda mələklər təsirlənirlər:
Əsil mömin olur qəlbi pak insan,
Gəldi on bir aya sultan Ramazan.

Nurdur səltənəti - sönməz, əbədi,
Hər ilə, hər aya, günə növbədi.
Günahlardan pak edib Mirhəmidi,
Məqamın yazaydı Cənnəti-rizvan,
Gəldi on bir aya sultan Ramazan!

*31 oktyabr 2005*

# MƏNİM MÜKAFATIM ALLAH VERİBDİR

*(”Hanı sənin var-dövlətin, sarayın, vəzifən, maşının və s.” deyən bədxahlara cavab)*

*Bu şeri bu dünya varına etina etməyən “İslam” da 12 günəşə bənzətdiyim 12 müqəddəs imamın eşqinə 12 bənd yazdım və 12 izah verdim.*

**(M.Qənizadə)**

Ay məndən var-dövlət xəbər alan “dost”,
Mənim mükafatım Allah veribdir.
Dilinin həmdəmi riya, yalan, “tost”[1],
Mənim mükafatım Allah veribdir.

Bu gün nə sarayım, nə maşınım var,
Nə uydum şeytana, nə qoşunum var.
Haqq-ədalət adlı öz arşınım var,
Mənim mükafatım Allah veribdir.

Əzəl məktəb oldu meylim, həvəsim,
Elm aldım, dəyişdi ruhum, nəfəsim.
Cabbara, Sabirə bərabər səsim[2],
Mənim mükafatım Allah veribdir.

Sevdim Yaradanı, ata-ananı,
Sevdim ana Vətən Azərbaycanı,
Sevdim kainatı, ərşi, cahanı,
Mənim mükafatım Allah veribdir.

---

*[1] Tost – yaltaqlıq, riyakarlıq, ikiüzlülük rəmzi.*

*[2] Cabbar, Sabir – Azərbaycanın, o cümlədən, Şərqin ən möcüzkar səs sahibləri, xanəndələr: Cabbar Qaryağdıoğlu və Sabir Mirzəyev nəzərdə tutulur.*

Qırx yaşı[1] mömintək salamlamışam,
Əllidə – müqtədir şair olmuşam:
Hikmət dolu iki kitab yazmışam,
Mənim mükafatım Allah veribdir.

İki diplom[2] – hərəsi bir xəzinə,
Məşhəd, Kərbəla səfəri – dəfinə[3].
İnşallah, gedərəm Həcc ziyarətinə,
Mənim mükafatım Allah veribdir.

Üç ildir "qareyi-Quran" olmuşam[4],
Açılıb bəsirət[5] batin bulmuşam.
O dünyanı seyr etmişəm, gəlmişəm[6],
Mənim mükafatım Allah veribdir.

Üç ziyarət[7] Rəsuli-Əkrəm ilə,
Bircə görüş Həzrət İmam Əli[8] ilə.

---

*[1] Qırx yaş – İnsan ömrünün Quranda göstərilən kamillik həddi.*
*[2] İki diplom – a)1981-ci ildə bitirdiyim M.F.Axundov adına Rus dili və Ədəbiyyat İnistitutu (indiki Bakı Slavyan Universiteti) nəzərdə tutulur. b)2005-ci ildə bitirdiyim Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzərdə tutulur.*
*[3] Məşhəd-Kərbəla – 2011-ci ilin aprelində müqəddəs Məşhəd şəhərində İmam Rza ə.s. ziyarətində və 2012-ci ilin may-iyun aylarında müqəddəs Kərbəla ziyarətində olmuşam.*
*[4] Qareyi-Quran – 52 yaşımdan sonra Quran dərsi almışam və mükəmməl qiraətə yiyələnmişəm.*
*[5] Bəsirət gözü – yəni, qəlb gözü: məcazi, gizli, batini mənaları görə bilmək qabiliyyəti: bu yalnız müttəqilərə nəsib olur.*
*[6] O dünyanı seyr etmək – Bunlar yalnız röyada baş vermişdir.*
*[7]Üç ziyarət – bütün ziyarətlər yalnız yuxuda olub: a)1975-ci il oktyabrın 4-ü, gündüz saat 11 radələrində, Bakıda; b)1987-ci il avqustunda Şuşada istirahət vaxtı; c)2013-cü ilin mayında Bakıda.*
*[8] İmam Əlinin ziyarəti – Bu ziyarət yuxuda, o biri dünyada ayrıca bir yerdə olub: qəribə də olsa, biz bir-birimizlə bir kəlmə belə danışmamışıq. 1996-cı il Biləsuvar.*

Söz kəsmişəm Kərbəla sərvərilə[1].
Mənim mükafatım Allah veribdir.

Rəbbimdən canlanır torpaq, örüş də,
Onsuz düşməz yarpaq, uçmaz bir quş da.
Ömrüm boyu "şeytanlarla vuruşda"[2],
Mənim mükafatım Allah veribdir.

İnsanlar bənzəyir qatil, oğruya,
Heç yerdə qiymət yox düzə, doğruya.
Çılpaq gedəcəklər məhşər-sorğuya,
Mənim mükafatım Allah veribdir.

Yolum İslam dini: Fürqan, Hidayət,
Gecə ibadətim: namaz, qiraət.
Qazancım tərbiyə, əxlaq, mərifət,
Mənim mükafatım Allah veribdir.

Qəlbdə iman, canda Quran, dil – dua,
Gecə, gündüz şükr edirəm Allaha.
Mirhəmiddən dünya görməz bir daha:
Mənim mükafatım Allah veribdir.

*11 dekabr 2013*

---

*[1] Kərbəla sərvəri – İmam Hüseyn ə.s. nəzərdə tutulur (bu ziyarət 2008-ci ilin avqustun 26-sından 27-sinə keçən gecə yuxuda baş verib.)*
*[2] Şeytanlarla vuruşlar – burada əsl və həqiqi şeytanlar, hətta məlun İblisin özü nəzərdə tutulur. (Yenə hər şey yuxuda baş vrir.)*

# SEYR ETDİKCƏ VƏTƏNİ



## VƏTƏN SEVGİSİ

*Könlümün sevgili məhbubu mənim,*
*Vətənimdir, Vətənimdir, Vətənim!*
**(A.Səhhət)**

Bir sahilsiz dənizdir,
Mənə Vətən sevgisi!
Canımdan da əzizdir,
Mənə Vətən sevgisi!

Qəlbə nurdan bacadır,
Tarixlərdən qocadır,
Hər sevgidən ucadır,
Mənə Vətən sevgisi!

Sevgimin sonasıdır,
Qəlb onla yanasıdır.
Eşqimin anasıdır,
Mənə Vətən sevgisi!

Bu nə istək, həvəsdir?
Bədən onsuz qəfəsdir.
Ən müqəddəs nəfəsdir,
Mənə Vətən sevgisi!

Ömrə vüqar naxışı,
Nur, bərəkət yağışı,
Məsum körpə baxışı,
Mənə Vətən sevgisi!

Huri, Qılman oylağı,
Suyu "Zəm-zəm" bulağı.
Bir gözəlin yanağı,
Mənə Vətən sevgisi!

Ulu Tanrı səsidir,
Sevgi təntənəsidir,
Şəhidlik zirvəsidir,
Mənə Vətən sevgisi!

Vətəni göz tək qoru:
Odur ən böyük soru.
Olar qəbrimin nuru,
Mənə Vətən sevgisi!

Hər dərdimə şəfqətdir,
Bir tükənməz sərvətdir,
Heç doyulmaz nemətdir,
Mənə Vətən sevgisi!

Mirhəmid, od-həniri,
Əridər daş-dəmiri:
Sevgili yarın biri,
Mənə Vətən sevgisi!

*27 aprel 2005*

## ŞƏLALƏ

*(Yardımlının "Təkdam"şəlaləsinə ithaf edirəm)*

Sakit bir çay idi, axırdı həzin,
Zirvəyə çatmamış laldı şəlalə.
Zirvə "bəxş elədi" hicran tövhəsin:
Dağlara naləsin saldı şəlalə.

Əzəl axarından vüsaldaydı o,
Neçə həftələrdi, neçə aydı o.
Nə qədər düzdəydi, sakit çaydı o,
Dağlar zirvəsində oldu şəlalə.

Axar çay sevginin iki qanadı:
Su - Leyli, arxın da Məcnundur adı.
Çay adı onların axar övladı,
Şirin zümzümədi, baldı şəlalə.

Həsrətə dözümü yalnız bir andır,
Canana can verib, nə can alandır,
Nə atəşdə yanıb, nə kül olandır,
Onunçun yetişməz, kaldı şəlalə.

Dağıtdı bağrını bir anlıq kədər,
Dəyişdi halını acı yaş, qəhər.
Olmadı sevgidə bir bulaq qədər,
Tamı dadılmamış qaldı şəlalə.

Ən gözəl çağıdır yazın, payızın,
Paklıq çeşməsidir işvənin, nazın.
Sevgi bulağından su içən qızın,
Başına örtdüyü şaldı şəlalə.

Çatdırır göylərə öz naləsində,
Kərəmin ahın da, Məcnun səsin də.
Mirhəmid şeirinin xoş kəlməsində,
Ən gözəl qiymətin aldı şəlalə,
Sevgi tarixində qaldı şəlalə.

*10 may 2005*

## LALƏ

Təbiətin ən sevimli qızısan,
Bəzərsən hər bahar çölləri, lalə.
Dilbər gözəllərin işvə-nazısan,
Şöhrətin dolaşır elləri, lalə.

Hər bahar yolunu ellər gözləyir,
Çəmənlər, düzənlər, çöllər gözləyir,
Hüsnünə min heyran güllər gözləyir,
Qoyma intizarda gülləri, lalə.

Həsrətdən saralan bağlara bir bax,
Sənlə keçirtdiyim çağlara bir bax.
Sənsiz gözü yaşlı dağlara bir bax:
Dağ-daşa səs salır selləri, lalə.

Al geyinib, şux bəzənmiş gəlinsən,
Ən şirin avazsan, ən şirin ünsən.
Ümidə, diləyə bürünən günsən:
Göylərə açılmış əlləri, lalə.

Rəngindən çəmənə, çölə al düşüb,
Güllər arasına qalmaqal düşüb.
Bağrının başına qara xal düşüb,
Günahkar - həsrətin illəri, lalə.

Könlüm səndə xalın qarəsindədir,
Ömrüm ürəyimin parəsindədir.
Sağalt Mirhəmidi: çarə səndədir,
Töküb şirin-şirin dilləri, lalə.

*18 may 2005*

## AŞİQƏM

Könlüm gözəlliyin məftunu olub,
Çəmənə, çiçəyə, gülə aşiqəm.
Vətən məhəbbəti qəlbimə dolub,
Bu yurda, diyara, elə aşiqəm.

Gəzək Vətən yurdun diyarbadiyar,
Belə gözəl diyar, söylə, harda var?
Cənubdan xəfifcə əsən gilavar,
Şimaldan xəzriyə, yelə aşiqəm.

Arfiə öz yeri şerin, qəzəlin,
Baharda çiçəyin, payız xəzəlin.
Səhər bulaq üstə çıxan gözəlin,
Əyninə geydiyi tülə aşiqəm.

Bənzədib özünü nazlı gəlinə,
Gözəl, gərək, həna yaxa əlinə.
Min naz ilə sığal verə telinə,
Şəkər, şərbət qata dilə, aşiqəm.

Yar qəlbinə min-min yara düzdürən,
Həsrət ilə eşq dağların gəzdirən,
Aşiqini oğrun-oğrun süzdürən,
Gözlərində fitnə-felə aşiqəm.

Şux yerişi hər addımda can ala,
Gülüşündən ruhum, könlüm canlana.
Hər görəndə həsrət qolum dolana,
Kəmər ola incə belə, aşiqəm.

Xəstə aşiq qoşa nara müştəri,
Sağaltmağa yar ləbi müjdə yeri.
Qanım tökə kipriklərin neştəri,
Canım ala gülə-gülə, aşiqəm.

Gül-çiçəyi sevdim sənin xətrinə,
Sən gəzən bağlarda gülün ətri nə?
Mirhəmidi mehman etdin ətrinə,
Döndərdin şeyda bülbülə, aşiqəm.

*13 iyun 2005*

## MƏN DƏ SİZİN ELLİYƏM

Salam dedim, - əleykümü ver görüm,
Tanış olaq: mən də sizin elliyəm.
Canını sağ, ruhunu saf, tər görüm,
Hər sözündən yurd-yuvası bəlliyəm,
Tanış olaq: mən də sizin elliyəm.

Dəfinə var torpağının təkində,
Neçə növ məhsul yetişir ləkində.
Yer şumlayır, tər tökür el əkində,
Bağı barlı, taxılı sünbüllüyəm,
Tanış olaq: mən də sizin elliyəm.

Göylərində telli durnalar süzür,
Göllərində nazlı sonalar üzür,
Çöllərində ürkək ceyranlar gəzir,
Dərələri dağ qoparan selliyəm,
Tanış olaq: mən də sizin elliyəm.

Maral, cüyür bəzəyi dağlarının,
Şeyda bülbül - ətirli bağlarının.
Aşiqiyəm bahar, yay çağlarının,
Lalə, nərgiz, reyhan, qızılgüllüyəm,
Tanış olaq: mən də sizin elliyəm.

Gözəlləri zülfü qara, bel incə,
Hal qalmayır gözlərini süzüncə.
Şəki, Şirvan, Muğan, Lənkəran, Gəncə,
Bakı, Təbriz, Zəncan, Ərdəbilliyəm,
Tanış olaq: mən də sizin elliyəm.

Bağlarında tükənməyən barı var,
Dağlarında yay əriməz qarı var,
Şimal -Xəzri, cənub - Gilavarı var,
Payızında xəzəl tökən yelliyəm,
Tanış olaq: mən də sizin elliyəm.

Qeysi Məcnun edən Leyli nazım var,
Kərəm yanğısını çalan sazım var,
Muğamat adında xoş avazım var:
Bəmi qəlb oxşayan, şaqraq zilliyəm,
Tanış olaq: mən də sizin elliyəm.

Söz mülkündə Şeyx Nizamim var mənim,
Öz ahəngim, öz nizamım var mənim.
Nəsimi, Füzuli sözüm var mənim,
Seyyid Əzim, Vahid söz, qəzəlliyəm,
Tanış olaq: mən də sizin elliyəm.

Xətaiyəm, elin dövlət rəmziyəm,
Koroğluyam, elin qeyrət nəbziyəm,
Əlimdə aynalı, əlbət, Nəbiyəm,
Düşmənin gözündən dəyən gülləyəm,
Tanış olaq: mən də sizin elliyəm.

Xalqı Gülüstanla bölünən yarı,
Əlindən alınan küll-ixtiyarı,
Qəmli sözə dönən hər ahü-zarı,
Dastanam, ağıyam, qaravəlliyəm,
Tanış olaq: mən də sizin elliyəm.

Qarabağı düşmən əlində olan,
Oğlu, qızı ermənyə qul olan,
Öz yurdundan, torpağından qovulan,

Qaçqınam, köçkünəm - adı bəlliyəm,
Tanış olaq: mən də sizin elliyəm.

Ürəyi açıqdır süfrəsi kimi,
Dünyada qəm yoxdur qüssəsi kimi.
İgid övladının cüssəsi kimi,
Düşmənə sancılan oxu milliyəm,
Tanış olaq: mən də sizin elliyəm.

Gün gələr, ədalət zəfər çalacaq,
Haqq uğrunda xalq bir yumruq olacaq,
Düşmənindən öz qisasın alacaq:
"Qiyamətə qalmaz" el məsəlliyəm.
Tanış olaq: mən də sizin elliyəm.

Xalq gücün birlikdə biləcək o gün,
Torpaq azad olub güləcək o gün,
Mirhəmid sevincin böləcək o gün:
Dərgaha açılmış ümid əlliyəm,
Tanış olaq: mən də sizin elliyəm.

*04 dekabr 2005*

## BARIŞSIN

Ay Allah, nə olar bu Yeni ildə,
Küsülülər şirin dillə barışsın.
Çıxarıb kökündən, yox edib xarı,
Gül bülbüllə, bülbül güllə barışsın.

Sevib-sevilməkdən ruh gəlsin cana,
Qoy girsin təbiət təzə-tər dona.
Gözəllər gözəli yaşılbaş sona,
Suyunda üzdüyü göllə barışsın.

Qovulsun torpaqdan qaniçən yağı,
Sağalsın Vətənin sinədən dağı.
Millət azad görsün, qoy, Qarabağı,
Bakı-Təbriz, Muğan-Millə barışsın.

Dağların döşündən sərin meh əssin,
Torpağa nur yağsın, bərəkət gəlsin.
Göz gözə sataşsın, ürəklər gülsün,
Dil-dodaqla, dodaq dillə barışsın.

Vətən eşitməsin ana naləsi,
Ruha qanad versin sübhün jaləsi.
Bulaq tək qaynasın aşığın səsi,
Sazında çaldığı tellə barışsın.

Dalmasın aşiqlər müşkül xəyala,
Qalmasın sevgidə alınmaz qala.
Mirhəmid yarıyla yetsin vüsala,
Çaldırıb toyunu, ellə barışsın.

*12 yanvar 2005*

# DƏLİLİK
# SEVGİNİN BƏXTƏVƏR DONU



## DƏLİ MƏNDƏN AĞILLIDIR

*Fəzayi-eşqi çün gördüm, səlahi-əqldən durəm,*
*Məni rusva görüb, eyb etmə, ey naseh ki, məzurəm.*

**M.Füzuli**

*Demə Məcnuna dəli, bəlkə də, Leyla dəlidir,*
*Eşq olan yerdə bütün aqili-dana dəlidir!*

**Ə.Vahid**

Məni bir günə salmısan,
Ömrüm, günüm nağıllıdır.
Ağlımı elə almısan,
Dəli məndən ağıllıdır!

Elə səni fikr edirəm,
Adın dildə zikr edirəm.
Dəliliyə şükr edirəm -
Dəli məndən ağıllıdır.

Birdən qəh-qəhlə gülürəm,
Ağlayıb gözüm silirəm.
Gah məzar qazıb ölürəm,
Dəli məndən ağıllıdır.

Süfrə açıb, qəm yeyirəm,
Dünya-cəhənnəm! - deyirəm,
Gah bığlarım çeynəyirəm,
Dəli məndən ağıllıdır.

Telinə gül bağlayıram,
Gah "gedirsən", saxlayıram,
İçin-için ağlayıram,
Dəli məndən ağıllıdır.

Mən zülmət,  sən Ulduz kimi,
İşıqlısan gündüz kimi.
Gah yalayıram duz kimi,
Dəli məndən ağıllıdır.

Gah "daş qoyuram" sözünə,
Gah "qaş qoyuram" gözünə,
Gah baş qoyuram dizinə,
Dəli məndən ağıllıdır.

Məcnun dəli, Kərəm dəli,
Dəlilik...  eşqin xəzəli.
Mirhəmid... çətin düzəli,
Dəli məndən ağıllıdır.

*23 yanvar 2005*

## KİMİ

Məcnun əyər hünərmənd[1]
Şair[2] söyləyən kimi,
Qoxlasın Leylisin, mən
Səni iyləyən kimi.

Sussun kaman, sussun ney,
Etsin taledən giley:
Kim ah çəkib, ötər hey,
Könlüm inləyən kimi?

Taledən tərs yel əsir,
Hey yıxmağa tələsir.
Quzular səsin kəsir,
Ünüm mələyən kimi.

Dünya bir vəlvələdi,
Kimə tordu, tələdi,
Kimin dənin ələdi,
Unum ələyən kimi.

Fələk hökmün bildirdi:
Gah ağlatdı, güldürdü,
Adım eldə bəlldirdi:
“Ağlar-güləyən“ kimi.

Yarım əhli-hal idi,
Dedim: bir sual edim.
Ondan öpüş dilədim,
Nəzir diləyən kimi.

---

[1] *Hünərmənd* - yəni: hünərli, mərd.
[2] *Şair - yəni*: M.Füzuli.

Qəlbim damğalayırsan,
Deşib, sırğalayırsan,
Rahat yırğalayırsan,
Beşik yelləyən kimi.

Mirhəmid bir dəfinə,
Öldürdün, de: səhfi nə?
Bürüdün kəfəninə,
Körpə bələyən kimi.

*29 aprel 2005*

## ÜRƏYİMİN DİŞ AĞRISI

*Sevgi ürəkdə olan diş ağrısıdır.*
**Qərb müdriklərindən biri**

Sevgi ürəyimə bir ağrı salıb,
Bu nə göz ağrısı, baş ağrısıdır.
Sanki sınıb dişim, kötüyü qalıb:
Ömrümə gənclikdən "başağrısıdır",
Sevgim ürəyimin diş ağrısıdır.

Ürək nə vaxt diş çıxartdı, bilmədim,
Başqa qəlbdə daş çıxartdı, bilmədim,
Diş çıxartdım, baş çıxara bilmədim,
Ağrısı ömrümün yaş ağrısıdır,
Sevgim ürəyimin diş ağrısıdır.

Hey ağrıyır, ürək macal görməyir,
Hünərin var özün bac al, verməyir,
Ömür bitir, çatır acal, ölməyir,
Sağkən bədən, gorda nəş ağrısıdır,
Sevgim ürəyimin diş ağrısıdır.

Kim hünərli bu ağrıdan qorunsun:
Yar vüsalı fikri, zikri, sorusu.
Bir gözəlin gözləridir "virusu":
Gizli yoluxmanın faş ağrısıdır,
Sevgim ürəyimin diş ağrısıdır.

"Rüşeymi" var ağrının da, dişin də,
Sevən qəlbin qan dövran gərdişində.
Yurd salıbdır ürəyimin "işində":
Əməl, peşə, sənət, iş ağrısıdır,
Sevgim ürəyimin diş ağrısıdır.

“Çıxartmağa“ yar ləbi kəlbətini:
Hər öpdükcə “diş“ tapır şəfqətini.
Dərindədir bu “ağrının“ bətini:
Fələklər nidası, ərş çağrısıdır,
Sevgim ürəyimin diş ağrısıdır.

Bu ağrı əzəl yaranıb insandan,
Onu üstün edib huri, qılmandan.
Ayrılmaz can ondan, nə də o, candan,
Süzgün göz məlhəmi, qaş sağrısıdır,
Sevgim ürəyimin diş ağrısıdır.

Yaranış binası bu ağrıdadır,
Həyatın mənası bu ağrıdadır,
Mirhəmid dünyası bu ağrıdadır:
“Olaydı əbədi kaş!“ ağrısıdır,
Sevgim ürəyimin diş ağrısıdır.

*12 may 2005*

## YAR ZİKRİNDƏDİR

*Hal əhli dilbərlə rastlaşdım dünən,*
*Salam edib sordu: - Şair, necəsən?*
*Dedim: - Şairliyim hardan bilirsən?*
*Dedi: - Dodaqların zümzüməsindən.*

**(M.Qənizadə)**

Yenə intizarın çəkir nigarın,
“Görən, nə vaxt gələr, yar?“ fikrindədir,
Düşüb səcdəsinə Pərvərdigarın,
“Rədd olsun gülümdən xar!“ fikrindədir,
Şair dodaqlarım yar zikrindədir.

Gözlərinə “bir cüt qara xal“ deyir,
“Oğrun süzüb, yar, canımı al,“- deyir,
Ləblərinə “yara məlhəm bal“ deyir, -
“Hələ salmayıbdır xar!“ fikrindədir,
Şair dodaqlarım yar zikrindədir.

Yar camalın Cənnəti-rizvan bilir,
Tər sinəsin baği-gülüstan bilir,
Söz-söhbətin “Məclisi-Ürfan“ bilir,
“Edər ol uyqudan bidar“ - fikrindədir,
Şair dodaqlarım yar zikrindədir.

Gur saçını bir pərişan tel sanır,
Tuti dilin şirin-şəkər dil sanır,
Yarı çəmənzarda qızılgül sanır:
“Vəslinə yetməsin xar!“ fikrindədir,
Şair dodaqlarım yar zikrindədir.

Şux yerişi ürəyinin nəbzidir,
Xoş gülüşü xoşbəxtliyin rəmzidir,
Bu necə naz, necə işvə, qəmzədir?
“Can alır, can verir yar“ fikrindədir,
Şair dodaqlarım yar zikrindədir.

Nə müddətdir könlüm yar həsrətində,
Kölgədə bəslənmiş qar həsrətində,
Dərmanım sinədə bar həsrətində,
“Oxşayıb qoxlamaq nar“ fikrindədir,
Şair dodaqlarım yar zikrindədir.

Neçə dəfə elçi gedib, alınıb,
Barmağına nişan üzük salınıb.
Bəy də çıxıb, mağarda toy çalınıb,
Dillənib kamanla tar“ fikrindədir,
Şair dodaqlarım yar zikrindədir.

Mirhəmidi əfsun edib Bəstəboy,
Ağlın alıb, cünun edib Bəstəboy,
Olub Leyli, Məcnun edib Bəstəboy:
“Həyat məhəbbətlə var!“ fikrindədir,
Şair dodaqlarım yar zikrindədir.

*13 may 2005*

## BÜLBÜL

Güldən ötrü hər yaz, bahar,
Ötür çəmənzarda bülbül.
Atıb gedir vəfasız yar,
Qalır intizarda bülbül.

Gülün eşqi qanında var,
Yar canını canı sanar:
Yanar eşqiylə, qızınar,
Çovğun, boran, qarda bülbül.

Bağda, çəmənzarda gəzər,
Nəğməsiylə bağı bəzər.
Yar yolunda canın üzər,
Yorulmaz yollarda bülbül.

Gecə-gündüz yarçün əsər,
Qurban olmağa tələsər.
Gülündən payızda küsər,
Barışar baharda bülbül.

Darayar yarın telini,
Oxşayar nazik əlini.
Bir gün qucmasa belini,
Qalar ahü-zarda bülbül.

Qəlbi olar toy-nişanda:
Görəndə yarı gülşəndə.
Yanar vüsal atəşində,
Pozulmaz ilqarda bülbül.

Odur yara can verəndə,
Kam alıb, dövran sürən də.
Gül qoynunda xar görəndə,
Çürüyər məzarda bülbül.

Dilinin zikri yar adı,
Odur ki, dili yar dadır.
Görsə gül meyli xardadır,
Oxumaz gülzarda bülbül.

Məhəbbəti aşıb-daşar,
Avazı ellər dolaşar.
Mirhəmid ilə yarışar,
Yara etibarda bülbül.

*15 may 2005*

## DƏLİ[1] MƏCNUN, YANIQ KƏRƏM, BİR DƏ MƏN

Eşq odunda yanmaq üçün gəlmişik:
Dəli Məcnun,Yanıq Kərəm,bir də Mən.
Yana-yana qanmaq üçün gəlmişik,
Qana-qana qovruluram sirdə mən,
Dəli Məcnun,Yanıq Kərəm,bir də Mən.

Göz yaranıb gözəllərə baxmağa,
Sözə dönüb ürəklərə axmağa.
Eşq sözünü, di gəl, qandır axmağa:
Üç hərfdir - üç aşiqdir, biri də Mən:
Dəli Məcnun,Yanıq Kərəm,bir də Mən.

Bir gözəlin gözlərindən od aldı,
Canan gördü ruh bədənə yad oldu.
Məhəbbətdə üç müqəddəs ad qaldı,
Sırasında hey dururam geridə Mən:
Dəli Məcnun,Yanıq Kərəm,bir də Mən.

Eşq oduna pərvanəlik bizdədir,
Sərsərilik, divanəlik bizdədir,
Bu dünyaya biganəlik bizdədir:
Hiss edirəm ruhumu göylərdə mən,
Dəli Məcnun,Yanıq Kərəm,bir də Mən.

---

*[1] Dəli - divanəlik, pərvanəlik, məstanəlik, müdriklik, qəhrəmanlıq rəmzi kimi*

Sevən könül mələk sanır dilbəri:
Kipriklərin  - məhəbbətin şapəri.
Mələklər keçirtdi göydə tədbiri,
Üç aşiqdən biriydim tədbirdə mən:
Dəli Məcnun, Yanıq Kərəm, bir də Mən.

Hər aşiqə qucaqdı öz cananı,
Alışdığı ocaqda köz - cananı.
Cananımla dəyişməm yüz cananı:
Yoxdur ona ismətdə, abırda tən,
Dəli Məcnun,Yanıq Kərəm, bir də Mən.

Günəş kimi nur saçırdı Bəstəboy,
Qəlb bağımda gül açırdı Bəstəboy,
Qanadı - mən, hey uçurdu Bəstəboy,
Eşq adıyla uçurduq - şapərdə mən:
Dəli Məcnun, Yanıq Kərəm, bir də Mən.

Məhəbbətdə şimşək kimi çaxardıq,
Görünərdik, tutulmazdıq, axardıq.
Hər birimiz özünə ad çıxardıq:
Məcnun dildə, Kərəm - kül,səbrdə Mən:
Dəli Məcnun,Yanıq Kərəm, bir də Mən.

Hanı aşiq məhəbbətdən yarıya?
Bir aləmdir yar oxuya, yar uya.
Mirhəmidəm, ömrüm çatdı yarıya,
Məndən sonra kimsə olmaz bir də Mən,
Dəli Məcnun,Yanıq Kərəm, bir də Mən.

*01 avqust 2005*

## KİPRİK

*Kirpiklərin oxdur, qaşın kamandır,*
*Ay qız, məndən üz döndərmə, amandır!*

**(C.Cahangirovun "Alagöz" mahnısından)**

Yaranıb gözləri qorumaq üçün,
Bədxah adamların gözündən kiprik.
Aşiqi odlara sarımaq üçün,
Od alır gözlərin közündən kiprik.

Məqamı qaş altda, gözdən üstdədir,
Qəlbi oxlamağa közdən dəstədir.
Yüz "davası" bircə sözün üstədir:
Əl çəkmir sevirəm sözündən kiprik.

O da göztək xumarlanır, yuxlayır,
Göz yatarkən rahatlığın yoxlayır.
Nişan alır, ürəyindən oxlayır,
Aşiqi qatlayır dizindən kiprik.

Hər çalması aşiqə qeylü-qaldır,
Qəlbi şan-şan edən oxları baldır.
Göz qəlbini ağlamağla boşaldır,
Bilinmir, nə çəkir gizlindən kiprik.

O olmazsa, göz qəlbləri dağıdar:
Hər çaldıqca gözün odun dağıdır.
Can almağa silahlanmış yağıdır,
Üstündür göz-qaşın yüzündən kiprik.

Mirhəmid, ağlını başından alır,
Yolunu yaralı sinəndən salır,
Sevgili yar kimi qəlbində qalır,
Səni ayırmayır özündən kiprik.

*22 dekabr 2005*

## GÖZLƏRİN

*İcazə ver, baxım, ey gül, o qarə gözlərinə,*
*Vurulmuşam, nə edim, aşikarə gözlərinə.*
**Ə.Vahid**

Necə şirin-şirin canımı alır,
Hərdən süzüləndə ala gözlərin.
Sənin meydanına bir ürək qalır,
Qorxuram onu da çala gözlərin.

Süzür məhəbbətin asimanında,
Alır aşiqinin din, imanın da.
Olum gözmuncuğu, qalım yanında,
Qoy gəlməsin heç zavala gözlərin.

Aşiqə can verib, neçə can çəkib,
Salıb bəlalara, özün yan çəkib.
Eşqində o qədər dərd, hicran çəkib,
Həsrət qalıb ilk vüsala gözlərin.

Könül tab gətirməz bir belə naza,
Dərdlilər dərdimdən kitablar yaza.
Darayıb tellərin hey qoşa saza,
Sevdiyi havanı çala gözlərin.

Mirhəmid vəslinə edibdir nəzir,
And içib, yolunda durub müntəzir.
Eşitdim özünə təzə yurd gəzir,
Köçüb ürəyimdə qala gözlərin,
Könlümü əbədi ala gözlərin.

*11 dekabr 2004*

# İTHAFLAR



## AŞPAZ XANIM SÜDABƏYƏ

*(Bütün aşpazlara ithaf edirəm)*

Qədəmin ruzili, xanım Südabə,
Dinlə məsləhəti, yaz bir kitabə:
Yağ, kartof, soğanla qoy bol olsun ət,
Xörəyə dad gəlsin, ağıza ləzzət.

Eylə bu sözləri qulaqda sırğa:
Yanmasın, nəzər qıl sən soğan-dağa.
Süfrədə heç kəsə qoyma qadağa,
Xoş rəftarınla qazan özünə hörmət.

Səliqə-səhmanı öyrən, yaxşı bil,
Yu qabı, döşəmə, pəncərəni sil.
Hər axşam otağı alanda təhvil,
Mirhəmid oxusun atana rəhmət.

*27 noyabr 2004*

# GÖZƏL

*(Gözəl adlı tanışıma ithaf)*

Gözəllik hədiyyə, vergi, bəxşişdir,
Tanrıdan insana pay olur, Gözəl!
Gözəllik önündə, bu necə işdir,
Can gəlir cansıza, durulur, Gözəl!

Camalın aşiqə bir işıq saçar:
Ruhu qanadlanar, göylərdə uçar.
Dünyaya ağalıq edən hökmdar,
Gözlərin önündə qul olur, Gözəl!

Tanrı gözəl biçim yaratmış səni,
Paklıqla durultmuş, arıtmış səni,
Elə taledən də yarıtmış səni:
Sevənlər dərdindən saralır, Gözəl!

Ürəyim bir odlu baxışa bağlı,
Ləbində bal dadan naxışa bağlı,
Ruhuma yurd olan ağuşa bağlı,
Odunla alışıb, kül olur, Gözəl!

Həyatda nə kədər, nə ahın olsun,
Can alan gözlərin silahın olsun.
Nə olar, bir az da insafın olsun:
Dünya gözlərimdə daralır, Gözəl!

Səninlə yazılıb tale kitabım,
Adın dil əzbərim, şirin xitabım.
Həsrətin çəkməkdən qalmayıb tabım,
Ürək kabab olur, qovrulur, Gözəl!

Mirhəmid aşiqdir dilə, dodağa,
Edibdir canını yara sadağa.
Dağ idi: ovuldu, döndü torpağa:
Kipriyin yel vurur - sovrulur, Gözəl,
Qırpılır - təzədən yoğrulur, Gözəl!

*15 mart 2005*

## AYGÜN

*(ADPU-nun "Ümumi tarix" kafedrasının işçisinə ithaf.)*

Səni görən bir baxışdan vurulur,
Aləmə nur salan camala, Aygün.
Gözün dəryasında çimir, durulur:
Paklaşır, yetişir kamala, Aygün.

Ehtiyacın yoxdur dünya malından:
Boylanır Günəşlə Ay camalından.
Aşiqlər dönməyir öz amalından,
Yetə vüsalına, kam ala, Aygün.

Ulduzlar sayrışır sənin xətrinə,
Adın yaraşıqdır şerim sətrinə.
Ətri çatmaz tellərinin ətrinə,
Dünya gözəlləri cəm ola, Aygün.

Nə gözəl yaraşır o qaş, göz sənə,
Rəhm edib aşiqə, yavaş süzsənə.
Bol edib nazını, demə: Dözsənə!
Sitəmin, məlalın kəm ola, Aygün.

İnan, həsrətinə dözmək çətindir,
Səni sevən dəyanətli, mətindir.
Vətən məhəbbəti şan-şöhrətindir:
Vurğunsan Cənuba, Şimala[1], Aygün.

---

[1] *Cənuba, Şimala* - Aygün əslən Cənubi Azərbaycandandır.

Səni görən həsrətdir şirin cana,
Alırsan ağlını, olur divana.
Sevən könlüm şəmistanda pərvana,
Camalın şövqü də şəm ola, Aygün.

Dövran sən tək gözəl çətin yetirə:
Güllər həsrət səndə olan ətirə.
Taleh səni bizim bağda bitirə,
Bülbüllər ətrindən dəm ola, Aygün.

Gəlişinlə təzələnir gül, çəmən,
Gülür bağça,gülür meşə, gül, çəmən.
Mirhəmidəm, gözlərinə elçi mən:
Kimə qismət ola, kim ala, Aygün.

*07 may 2005*

## RUHİYYƏ XANIM

*(Həkim-flüoroqraf Ruhiyyə xanıma ithaf edirəm)*

Adının mənası dünyaya dəyər,
Adınla fəxr elə, Ruhiyyə xanım.
Bir süzgün baxışdan dünya dəyişər:
Can gələr cansıza, quruya, xanım,
Gəl can ver ölüyə, Ruhiyyə xanım.

Məhəbbətdən qanadlanıb uçursan,
Günəş kimi aləmə nur saçırsan.
Niyə aşiqindən kənar qaçırsan?
Qoyma könül səndən inciyə, xanım,
Gəzmə belə gendən, Ruhiyyə xanım.

Bir aləmsən oğrun-oğrun baxanda,
Darayıb, telinə şana taxanda.
İnsaf elə aşiqini yaxanda,
Al qanadın altda kölgəyə, xanım,
Məhəbbət qanadlı Ruhiyyə xanım.

Zülflərini darayırsan, hörürsən,
Hörüklərin dal gərdənə sərirsən.
Xəstələrin daxilini görürsən,
Fəxr edir səninlə səhiyyə, xanım,
Aşkarsan gizliyə, Ruhiyyə xanım.

Bağda, çəmənzarda nazla gəzirsən,
Bülbül kimi xoş avazla gəzirsən,
Baharla oynayıb, yazla gəzirsən,
Bənzərsən bir nazlı pəriyə, xanım,
Ay işvəli, nazlı, Ruhiyyə xanım.

Könlüm hər əmrinə “bəli“yə dönüb,
Almısan ağlını, dəliyə dönüb.
Ləbim ləblərinə zəliyə dönüb:
Çətin doya səndən, kiriyə, xanım,
Çeşmə ol təşnəyə, Ruhiyyə xanım.

Tuti dilə heyran qalıb dilçilər,
Nə xoş gülsən: ətrin alıb, gül çilər.
Qapınızı meydan salıb elçilər,
Gəliblər “şirniyə“, “həriyə“, xanım,
Cavab ver elçiyə, Ruhiyyə xanım.

Gəldin, gördü könlüm səni, sevindi,
Ürək sevir bircə səni: sevin di!
Mirhəmidəm, qəlbim sənin evindi,
Buyur, öz evinə ol yiyə, xanım,
Nur saç ev-eşiyə, Ruhiyyə xanım.

*14 may 2005*

## OLUBDUR

*(Bir eşqin ucundan başqa ölkəyə üz tutan tanışımın dilindən)*

Ay gözəl qız, sən mənə rast gələni,
Nurlu günüm zülmət qara olubdur,
Ala gözlərini nazla süzəni,
Bağrım başı para-para olubdur.

Tellərin bir qoşun süvari kimi,
Gözlərin bircə cüt mirvari kimi,
Sinən bağ: qoşa nar nübarı kimi,
Üzün Savalanın qarı olubdur.

İstərsən, dərdimə çara bularsan:
Tərlana yar olub, sara gülərsən.
Məni bu yollarda yora bilərsən:
Sən gəncsən, məndə yaş yarı olubdur.

Zənn etmə, gedirəm unutmaq üçün,
Gedirəm söz-söhbət sovutmaq üçün.
Sızlayan könlümü ovutmaq üçün,
Ürkək baxışların çarə olubdur.

Sinəmə közündən yara düşsə də,
Həsrətdən ürəyim zara düşsə də,
Çovğuna, borana, qara düşsə də,
Məhəbbətin - xilaskarı olubdur!

Dolan çəmənzarı, əylən gülşəni,
Həmişə yanında, gülüm, bil məni,
Qoyma, el söyləsin böylə kəlməni:
Bu qız dərd çəkməkdən qarı olubdur!

Dinlə sözlərimi bir öyüd kimi,
Qoru eşqimizi bir ümid kimi,
Kim duyar sevgini Mirhəmid kimi:
Eşq ömrünün iftixarı olubdur.

*08 dekabr 2005*

## BACIMIN AD GÜNÜNƏ

*(14 dekabr bacım Məleykənin ad günüdür)*

Gəldim səni təbrik edim,
Bacı, sənin ad günündür.
Sevincimi sənlə bölüm,
Xoş arzu, murad günündür,
Bacı, sənin ad günündür.

Sanki dünəndi - doğuldun,
Şirin əfsanə, nağıldın,
Qənddin, şəkərdin, noğuldun,
Bu gün həmin dad günündür,
Bacı, sənin ad günündür.

Bir aləmdi gözün, qaşın,
Adını qoydu qardaşın[1].
Tez atdın subaylıq daşın:
Süzür doğma, yad, günündür,
Bacı, sənin ad günündür.

Elçi düşdü eldə sənə,
Gəlin köçdün, əldə həna.
Dörd uşağa oldun ana,
Ərinə - imdad, günündür.
Bacı, sənin ad günündür.

O günlərdən çox il keçib,
Dövran işin ölçüb-biçib:

---

[1] *Məndən böyük qardaş Mirhəmzə nəzərdə tutulur.*

Böyük qızın gəlin köçüb,
Kiçiyə nobat günündür,
Bacı, sənin ad günündür.

Aylar, illər əvəzlənir,
Arzularla əzizlənir:
Nəvə, nəticə gözlənir,
Arzulara çat, günündür,
Bacı, sənin ad günündür.

Yanaqların gül çöhrəsi,
Qəm-kədər səni öpməsin.
Mirhəmidin söz töhfəsi,
Şeir, muğamat günündür,
Bacı, sənin ad günündür,
Arzuya qanad günündür!

*14 dekabr 2005*

## LALƏ

*(Tanışım  Lalə xanıma ithaf edirəm)*

Seçilirsən gözəllərin içindən,
Səndə bu gözəllik hardandı, Lalə?
Telinə qaralıq  köçib gecədən,
Camalın ağlığı qardandı, Lalə.

Gözündə sevgi, eşq dənizi vardır,
Üzündə Ay, Günəş bənizi vardır.
Neçə qul, qaravaş, kənizin vardır -
Bağında sərvətdən, vardandı, Lalə!

Lalə gülü kimi boyun bəstədir,
Yerişin ahəstə, zülfün dəstədir.
Səni görən aşiqlərin xəstədir:
Şəfası sinəndə nardandı, Lalə.

Neynirsən dünyanın dövlətin, malın,
Dünyadan üstündür üzdəki xalın.
Yara məlhəmliyi ləbdəki balın,
İllərlə dəydiyi xardandı, Lalə.

Ceyran yerişin var, maral duruşun,
Gəzirsən çölləri zülfü pərişan.
Aşiqin bağrının olmağı şan-şan,
Dərdindən çəkdiyi zardandı, Lalə.

Sanma ömrün dumandadır, çəndədir:
Xoş günlərin, xoş illərin öndədir.
Sən bir gülsən, bülbül meyli səndədir,
Qovrulub yanmaqlıq xardandı, Lalə.

Eşit Mirhəmidi, dinlə bir anlıq:
Sevgi, məhəbbətdir ömrə sultanlıq!
Sevgini duymamaq - əsl nadanlıq,
Ağlı, düşüncəsi dardandı, Lalə.

*20 dekabr 2005*

# MƏHNAZ

*(Tanış jurnalist Məhnaz Adilqızına ithaf edirəm)*

Könül deyir qıl seyrinə tamaşa,
Can verib, can alan afətdir Məhnaz.
Danışdıqca bal tökülür dilindən,
Şirin bir nağıldır, söhbətdir Məhnaz.

İşıq salır bədirlənmiş Ay kimi,
Zümzümədir şırıltılı çay kimi.
Səkir kəklik kimi, torağay kimi,
Bülbülün səsində cəh-cəhdir Məhnaz.

Adıma şer oxu! - deyir, - oxuram,
Jurnalistdir, qələmindən "qorxuram".
Şerimdən telinə çələng toxuram,
Görənlər söyləyər: "Bəh-bəhdir Məhnaz".

Gözündə yatıbdır min bir işvə-naz,
Ətirli bir güldür: saralmaz, solmaz,
Sağında Səidə, solunda Çimnaz[1],
Tamam bir "redaksə, heyətdir" Məhnaz.

Məhəbbətdə sanırsan bir Leylidir,
Hansı Məcnundan, görən, gileylidir?
Şair kimi sevir bir Mirhəmidi,
Hər qıza, gəlinə şöhrətdir Məhnaz.

*21 dekabr 2005*

---

[1] *İş yoldaşları nəzərdə tutulur.*

## BƏYİN XEYİR-DUASI

*(Təzə evlənənlərə ithaf edirəm)*

Bu gün sənin şad günündür,
Qurulub toyun mağarı.
Yayır ellərə sədasın
Zurna, balaban, nağara.

İyirmi beşə çatıb yaşın,
Ucalsın göylərə başın.
Atırsan subaylıq daşın:
Evlilik bir baş yuxarı.

Zəhmət etsin səni mətin,
Dildə gəzsin məhəbbətin,
Düz ilqarın, sədaqətin,
Açılsın ömrün baharı.

Günü aya qata- qata,
Çat xoş dövrana,busata.
Gələn il olasan ata,
Başlansın nəslin axarı.

Bağında hər cür gül olsun,
Zəmin dolu sünbül olsun,
Xoş avazın bülbül olsun,
Yayılsın elə, diyara.

Dost ol fəsli-bahar ilə,
Ömrü başa vur yar ilə.
Kötükcədən nübar elə,
Sonra ömrü vur axıra.

Mirhəmidi dinlə bir an:
Bu həyat sınaq, imtahan.
Köməyin olsun Yaradan,
Ol suların lal axarı.

*12 aprel 2006*

## AYSELİMİN ARZUSU

*(Sonbeşiyim Aysel qızıma)*

*Arzu- həyat deməkdir,*
*Oxumaq istəyirsən-*
*Bu da elə arzudur!*
**(Rəsul Rza)**

Ayselim tez böyüdü,
Orta məktəb bitirdi.
Buraxılış zənginə
Anasını gətirdi.

Onu tanıyan hər kim
Deyir: Olacaq həkim!
Uşaqlıqdan “seçilib“
Ayselim həkim təkin.

...Qoşulub anasına
Xəstəyə “baş çəkərdi“,
Həkim-ana əlinə
Diqqətlə göz dikərdi.

Neçə-neçə xəstəni
Bir gündə yoluxardı,
Xəstə əzab çəkəndə
Ayselim doluxardı.

Məqsədi qorumaqdır
Səhhətin insanların.
Arzuları çin olsun
Qoy bütün insanların!

Ayselin arzusuna
Sevənləri qoşuldu.
Həkimlik - arzuların
Ağ qanadlı quşudu.

Sevindim bu arzuya
Məndə bir ata kimi,
Qurbanını kəsərəm
Arzuya çatan kimi.

*31 may 2006*

## TƏRANƏ

*(Tanışım Səfəralının xahişi ilə)*

Bu dünyada sənsən mənim
Haqq görən gözüm, Təranə.
Qəndim, noğulum, şəkərim,
Həm şirin sözüm, Təranə.

İnciyib gen gəzmə belə,
Gözlərini süzmə belə,
Ürəyimi üzmə belə,
Tükənib dözüm, Təranə.

Küsmüsən- mən qəmlənmişəm,
Səbəbini öyrənmişəm:
Guya ki, səndən dönmüşəm!
Yox sənə sözüm, Təranə.

Bax gözümə - öyrən düzü,
Gözümdədir düzün özü.
Sənin gözün eşqin közü,
Sinəmə düzüm, Təranə.

Sənsiz dünyanı görmərəm,
Bir xoş ömür-gün sürmərəm.
Yüz qız-gəlinə vermərəm,
O qara gözün, Təranə.

Sən dözümüm, inadım ol,
Saf amalım,muradım ol,
Məhəbbətdən qanadım ol,
Göylərdə süzüm, Təranə.

Şimşək tək səmada çaxaq,
Od olaq: yandıraq, yaxaq,
Nəğmətək qəlblərə axaq:
Şirin avazım Təranə.

Mirhəmidə rəhm et, zalım,
Xəstənəm, yanında qalım:
Könlünü axşamlar alım,
Səhərlər küsüm, Təranə.

*01 iyun 2006*

## RƏVANƏ QIZIM

*(Övladdan qız nübarım Rəvanəyə doğum günü münasibəti ilə)*

Yanvarda gəldin dünyaya,
Bənzər oldun Günə, Aya.
Qışımı döndərdin yaya,
Oldun gül- çiçəkli yazım,
Ay mənim Rəvanə qızım.

Yazda gülə qarışardın,
Lalə kimi alışardın,
Gül- çiçəklə danışardın:
Sən idin ətirli sözüm,
Ay mənim Rəvanə qızım.

Qaşları qıyqac qız idin,
Sanki yanar ulduz idin.
Sözündə doğru, düz idin:
Doğrum,həqiqətim, düzüm,
Ay mənim Rəvanə qızım.

Uşaqlıq keçdi, daldadır,
Gəncləşdin,ömrün bal dadır.
Uğur qatarın yoldadır,
Qoy çin olsun sənlə arzum,
Ay mənim Rəvanə qızım.

Sevdin öz yurd, millətini,
Qazandın el hörmətini.
Seçdin ata sənətini,
Vüqarlandım, gülür üzüm,
Ay mənim Rəvanə qızım.

Evimizin vüqarısan,
Qız övladdan nübarısan.
Taleyindən də yarı sən:
Xoşbəxtlik gölündə üzüm,
Ay mənim Rəvanə qızım.

Dost, həmdəmin bahar olsun,
Bağında hər cür bar olsun,
Qoy sənə Tanrı yar olsun,
Fəxr eyləyim sənlə özüm,
Ay mənim Rəvanə qızım.

*14 yanvar 2007*

## SEVİNC

*(Qaynım qızı Sevinc Mirelşən qızı Mirhəsənliyə doğum günü münasibətilə ithaf edirəm.)*

Hər gözəl dünyaya Günəştək doğur:
Ziyası qəlblərə yayılır, Sevinc!
Sevir bu dünyanı şirin yuxutək,
Özü seviləndə ayılır, Sevinc!

Körpə evdən dərdi, qəmi atandır,
Şirin ana laylasıyla yatandır,
Sən böyüdün, Günəş səndən utandı,
Bir bax, çöhrəsindən duyulur, Sevinc!

Gözəl doğulubsan, dana bilməzsən,
Gözəllikdən özgə qana bilməzsən.
Sənin ilə atan-anan, bilməzsən,
Nə qədər fəxr edir, öyülür, Sevinc!

Boy-buxunda bəstə, şirindir dildə,
Ətrindən şuxlanır çəmən də, gül də.
Bənzəri tapılmaz mahalda, eldə,
Üç gözəldən[1] biri sayılır Sevinc.

Şirin yaşa, duyma dünyada acı,
Dalğın baxma, süz gözünü qıyqacı.
Ol "qardaşa ana, anaya bacı"–
El sözüdür, belə deyilir, Sevinc.

---

[1] *Üç gözəl – Klassik ədəbiyyatda işlənmiş 3 simvolik gözəl:*
*1). O biri dünyada, behiştdə: a)Mələk; b) Huri; c)Qılman.*
*2) Bu dünyada: a) Maral; b)Ceyran; c) Cüyür.*

*Qeyd: Təxəyyül və izah müəllifə aiddir.*

Unut hər ağrını, unut itkini,[1]
Qov həyat yolundan çəni, çiskini.
Dünya alır birin, verir birini,
Səbrlə qış dönüb yay olur, Sevinc!

Doğuldu dünyaya O, Qoç bürcündə:
Bahar təravəti hər an üzündə.
Bürünüb duvağa günün birində
Ələ həna yaxıb, toy elər Sevinc.

Nə gözəldir ömrə yazın gəlməsi,
Üzün gülsün, qəlbin kədər bilməsin.
Vəsfinə deyilən şair kəlməsi
Sənə Mirhəmiddən pay olur, Sevinc.

*09 aprel 2012*

---

[1] *İtki – Bu yaxınlarda dünyasını vaxtsız dəyişmiş atasının itkisi nəzərdə tutulur.*

# ELLƏR LOĞMANI

*(Beynəlxalq dərəcəli parapsixoloq İlham Səfərliyə ithaf edirəm)*

*Ellər loğman deyir sənə əzəldən,*
*Xəstə könülləri sənsən düzəldən.*
*Ömrü daha yağı, vaxtsız əcəldən,*
*Qoru hikmətinlə hər zaman, həkim.*
**Mirmehdi Seyidzadə**

Allahın sevimli bəndəsisən sən:
Ellər sənə təbib, loğman söyləyir.
Yanına ən ağır xəstələr gəlsə,
Şəfalı əllərin dərman eyləyir.

Bu şəfa, bu qüvvət - Tanrı möcüzü:
Sənə bəxş edibdir Tanrının özü.
Tarix belə loğman az görüb, düzü:
Ümidsiz insanlar fəğan eyləyir.

Sormadan xəstənin dərdin bilirsən,
Sevincin paylaşıb, qəmin bölürsən,
Qəlbə günəş doğub, üzə gülürsən,
Xəstə ruh sevincdən tüğyan eyləyir.

Olur ki, yanına "öləri" gəlir,
"Ölümə çarə yox!" – bunu el bilir,
Əlacsız qalırsan – qəlbin kövrəlir,
Əcəl öz hökmünü bəyan eyləyir.

Xoş sözü, kəlməni şəfa bilirsən,
Kimsə şəfa tapır – deyib, gülürsən,

Sevincdən ağlayıb gözün silirsən,
Kim sən tək göz yaşın leysan eyləyir?

Ümidin üzsə də dərman-davadan,
Xəstə əl üzməyir təkcə Xudadan.
Sənə qüdrətindən verib Yaradan:
Adında loğmanlıq ünvan eyləyir.

Söhbətin dillərdə şərqidir, İlham,
Üzün məhəbbətdən sərgidir, İlham,
Səndəki bu çəfqət vergidir, İlham,
İnsanı Sübhana şükran eyləyir.

Səndən şəfa tapır gənc də, qoca da,
Əl tutursan kimsəsizə, aca da.
Adın durub ucalardan ucada,
Qəlbləri özünə meydan eyləyir.

Qızların ömrünə güntək nur saçır:
Ocağında Şəmslə Günəş* dil açır.
Nəsl ağacı Tural ilə gül açır,
Həyat bağçasına bağban eyləyir.

Başının tacıdır bu Vətən-Ana,
Bağlısan vicdana, dinə, imana.
Sən ki, fəxarətsən Böyük Turana,
Şöhrətin elləri heyran eyləyir.

Ad-sanın, şöhrətin dağları aşır,
Səndən ilham alıb ürəklər coşur.
Mirhəmid şəninə nəğmələr qoşur,
Adını dillərdə dastan eyləyir.

*16 noyabr 2005*

[1] *Qızlarının adıdır.*

# MÜNDƏRİCAT

*S.T.AzərAzər. Mənadan mənaya baş vuran şair*................... 3
*Müəllifdən*........................................................................ 8

## Ustadnamələr

Aralı.............................................................................. 12
Könlümün..........................................................................14
Olaydı..............................................................................16
Vermişəm..........................................................................18
Borcluyam........................................................................ 20
Mənim..............................................................................22
Sonra................................................................................24
Yerinə...............................................................................26
Salam, imkanlı qardaş......................................................27
Qiymətini..........................................................................29
Ruhum segaha köklənib....................................................30
Baxır.................................................................................32
Elə qurban.........................................................................33
Olur.................................................................................. 35

## Allah, bu mələkdir, yoxsa ki insan?!

Səni .................................................................................38
Axtarır.............................................................................. 40
Düşübdür...........................................................................42
Mənə.................................................................................44
Mənim...............................................................................46
Dilbərin.............................................................................48
Səni alaram.......................................................................50

Bilməz....................................................................52
Nə yeməli candı bu can.................................................... 54
Ay gözəl ..................................................................56
Bu qızın...................................................................58

**Səni vəsf etməyim, kimi vəsf edim**

Məni təbrik edən dilinə qurban...........................................60
Məni.......................................................................61
Bilirsənmi sən nəsən?!.....................................................63
Xəyalın....................................................................65
Gülüm......................................................................67
Sənindir...................................................................69
Dözə bilmirəm..............................................................71
Hardasan ..................................................................73
Sənin .....................................................................75
Naz eləsənə ...............................................................77
Nazına qurban .............................................................79
Başdaşıma baxan gözəl ..................................................... 81
Gəzən qız .................................................................83
Sənsən, gözəlim ...........................................................85
Küsənim ...................................................................87
Sən güləndə ...............................................................89
Tellərin ..................................................................91
Nazlı yarı görüm ..........................................................93
Niyə gen gəzirsən məndən ..................................................95
Sən - mən .................................................................97
Xəyalımla rastlaşan və ya iki kitaba xülasə ...............................99
Gözlərimi həsrət qoyma gözünə ..........................................100

**Adlı gözəllər**

Vüsalə ..........................................................................102
Süsən xanım ....................................................................104
Səbinə ..........................................................................106
Gözəllər ........................................................................108
Bəstəboy .......................................................................110
Günayım ........................................................................112
Güllərin bəstəboyu ..........................................................114

**Mahnılar, qəzəllər**

Eşqimizə ağladım .......................................................... 116
Bala Nazənin ..................................................................117
Ay ala göz yarım.............................................................118
Ana ...............................................................................119
Nəvəmin "məsləhəti" ......................................................120
Gərək .............................................................................122

**Əllərim dərgaha açılı qalıb**

Millətə təpər ver, allah! ..................................................124
Səni səndən istəmərəm! ...................................................126
Ya atamı öldürən Allah! ...................................................129
On bir ayın sultanı ...........................................................133
Mənim mükafatımı Allah veribdir ....................................136

**Seyr etdikcə Vətəni**

Vətən sevgisi.................................................................. 140
Şəlalə ............................................................................142
Lalə .............................................................................. 144

Aşiqəm ........................................................................ 145
Mən də sizin elliyəm ........................................................147
Barışsın ........................................................................150

**Dəlilik sevginin bəxtəvər donu**

Dəli məndən ağıllıdır ........................................................152
Kimi ........................................................................154
Ürəyimin diş ağrısı ........................................................ 156
Yar zikrindədir ........................................................158
Bülbül ........................................................................160
Dəli Məcnun, yanıq Kərəm, bir də mən ............................ 162
Kiprik ........................................................................ 164
Gözlərin ........................................................................ 166

**İthaflar**

Aşpaz xanım Südabəyə .................................................. 168
Gözəl ........................................................................169
Aygün ........................................................................171
Ruhiyyə xanım ........................................................173
Olubdur ........................................................................ 175
Bacımın ad gününə ........................................................ 177
Lalə ........................................................................ 179
Məhnaz ........................................................................ 181
Bəyin xeyir-duası ........................................................ 182
Ayselimin arzusu ........................................................ 184
Təranə ........................................................................ 186
Rəvanə qızım ........................................................188
Sevinc ........................................................................ 190
Ellər loğmanı ........................................................ 192

***Mirhəmid Mirəli oğlu Qənizadə***

**Ürəyimin diş ağrısı**
(*şeirlər*)

Bakı - Mütərcim - 2014

Nəşriyyatın direktoru – **prof. Telman CƏFƏROV**
Nəşriyyat redaktoru – **Əliş AĞAMİRZƏYEV**
Kompüter səhifələnməsi – **Xədicə TAĞIYEVA**
Üz qabığının işlənməsi **- Cavid KİŞİYEV**

*Kitab «Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzində
səhifələnmiş və çap olunmuşdur.*

Çapa imzalanıb: 19.03.2014.
Format: 84x108 1/32. Qarnitur: Times.
Ofset kağızı: əla növ. Həcmi: 12,5 s.ç.v. Tiraj: 400
Sifariş № 55. Qiyməti müqavilə ilə.

---

**“Mütərcim” Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
Tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru